

"Bizim gələcəyimiz təhsilə bağlıdır... bilik, zəka, peşəkarlıq ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra təmin edəcək. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, o ölkələrin inkişafında ən aparıcı rol oynayan... məhz bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır. Bizdə də belə olmalıdır. Biz də təhsilimizi bu istiqamətdə qurmalıyıq".

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

# 2009/2010-cu TƏDRİS İLİNDƏ
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ
PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli fərmanına uyğun olaraq **qərara alıram**:

1. 2009/2010-cu tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticə göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abdullazadə Fəxrintac Səbuhi qızı
Ağabalayeva Gülnar Şirzad qızı
Ağalarov Xanlar Adil oğlu
Ağamməzdov Ucal Novruz oğlu
Ağayev Eldar Savadxan oğlu
Ağayev Nicat Gülağa oğlu
Axundlu Rəna Firəddin qızı
Aslanova Könül Yaşar qızı
Babayev Azad Əbdül oğlu
Baxişova Səidə Qulu qızı
Bayramova Günay Yusif qızı
Bayramova Leyla Maarif qızı
Bəşirzadə Nərmin Mirnamiq qızı
Cəbrayılov Kamran Alim oğlu
Cəfərov Fərid Baloğlan oğlu
Cəfərov Vüqar Hafiz oğlu
Cəfərova Nəzrin Rasim qızı
Əbdürəhmanova Saidə Xaləddin qızı
Əhmədli Nigar Əhməd qızı
Əhmədzadə Nicat Kərəm oğlu
Əhmədzadə Nigar Novruz qızı
Əkbərli Elçin Məharət oğlu
Əlicanov Nəzir Mustafa oğlu
Əlili Əlibəy Şamil oğlu
Əliyev Rüfət Bürhan oğlu
Əliyev Sənan İsa oğlu
Əliyeva Nigar Sakif qızı
Əsədli Azərxan Asif oğlu
Əsgərli Kənan Eytibar oğlu
Əsgərova Nigar Rüfət qızı
Əsgərzadə Tuğraxanim Həsən qızı
Əzizli Toğrul Şahin oğlu
Fərəcli İlahə İlqar qızı
Hacıyev Elnur Asif oğlu
Hacıyev Ramil Ibrahim oğlu
Hacıyeva Nərminə Fazil qızı
Hacızadə Rövşən Əfqan oğlu
Hakimov Nicat Eldar oğlu
Heydərov Vüqar Daniyar oğlu
Həsənov Inqilab Sunqulu oğlu
Həsənova Aysel Yusif qızı
Hüseynli Hüseyn Zülfü oğlu
Hüseynli Zeynəb Vahid qızı
Hüseynzadə Nərgiz Eldar qızı
İbrahimli Aysel Cəfər qızı
İsazadə Elvin Qismət oğlu
Kazımlı Ülviyyə Tahir qızı
Kazımova Adilə Səyyar qızı
Qasımov Əlisəfa Niyazi oğlu
Quliyeva Ramiyyə Elxanovna
Qurbanova Aynur Mahmud qızı
Mahmudov Zaur Rizvan oğlu
Məmmədxanlı Rüfət Cahangir oğlu
Məmmədli Ləman Faiq qızı
Məmmədli Sahil Gülağa oğlu
Məmmədov Adil Şamirzə oğlu
Məmmədov Məhəmməd Ilqar oğlu
Məmmədov Naim Vasif oğlu
Məmmədova Elvira Vidadi qızı
Məmmədova Günay Əbülfəz qızı
Məmmədova Günay Salman qızı
Məmmədova Sürəyya Şaban qızı
Mənsimli Rəsul Fazil oğlu
Məsməliyev Vahid Çingiz oğlu
Mirhadi Gülər Surxay qızı
Mirhadi İsmayıl Surxay oğlu
Miri Nərmin Natiq qızı
Miriyeva Günay Mirsaleh qızı
Mirizadə Kənan Mirələm oğlu
Mirzəfərli İsmayıl Qələndər oğlu
Mirzəyev Adil Tərlan oğlu
Muradov İlkin Allahverdi oğlu
Musabəyli Müsaqil Müsənnif oğlu
Musayeva Fəridə Mehman qızı
Musazadə Xəyyam Həsrət oğlu
Mürsəlli Səbinə Oqtay qızı
Mürşüdov Məhəmməd Idnoy oğlu
Nağıyev Babək Eldar oğlu
Nağıyev Orxan Mayıl oğlu
Nəsirova Aynur Fərhad qızı
Rəcəbov Rəcəb Məmməd oğlu
Rüstəmli Azər Ağasər oğlu
Rüstəmli Fidan Əli qızı
Rüstəmli Şəbnəm Xanlar qızı
Rüstəmov Cavid Zöhrab oğlu
Sadıqov Bəhruz Babək oğlu
Salahlı Aygül Habil qızı
Salmanov Orxan Adil oğlu
Sariyeva Reyhanə Əhməd qızı
Səfərov İsmayıl Amil oğlu
Səfərova Zümrüd Rasim qızı
Səmədli Aytən Firuz qızı
Şəfisoy Səməd Abuzər oğlu
Şükürov Pərviz Çingiz oğlu
Talıblı Tural Şəfayət oğlu
Tükanlı Kərim Səməd oğlu
Yusifli Əlizamin Nizami oğlu
Zaidova Ülkər Habil qızı
Zaman Aydan Zakir qızı
Zeynalov Asəf Siracəddin oğlu
Zeynalov Rauf Elbəyi oğlu
Zeynalova Günel Seyfəddin qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 24 sentyabr 2009-ci il**

# BİLİK YARIŞI REKORDÇULARI İLƏ MÜSAHİBƏLƏR

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası əvvəlki illərdə olduğu kimi, bu il də ali məktəblərə yüksək balla qəbul olan gənclərin ictimaiyyətə tanıdılması, təcrübələrinin öyrənilməsi və yayılması məqsədilə bir sıra tədbirlər həyata keçirib. "Abituriyent" jurnalının bu sayı bütünlüklə onlara həsr edilib. Aşağıda TQDK-nın keçirdiyi tədbirlərdə iştirak edən, anket sorğusuna cavab verən, özü haqqında informasiya və foto şəklini təqdim edən hər bir gəncin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi orta məktəb haqqında məlumatlar dərc olunur.**

**Əvvəlcə hər ixtisas qrupunda rekord nəticə – ən yüksək bal toplayan gənclərlə aparılmış müsahibələri təqdim edirik.**



Əhmədli Nigar Əhməd qızı Binəqədi rayonu Rüstəm Əliyev adına 3 nömrəli orta məktəbi bitirib. I ixtisas qrupu üzrə 690 balla Bakı Dövlət Universitetinin "Kompyuter elmləri" ixtisasına qəbul olub.

***- Abituriyentlərin bir çoxu üçün yüksək bal əlçatmaz görünür. Sizcə, buna çatmaq üçün nə etmək lazımdır?***

- Yüksək bal toplamaq heç də əlçatmaz bir nəticə deyil. Bunun üçün 11 il ərzində orta məktəbdə yaxşı oxumalısan ki, əvvəlcədən mükəmməl bazan olsun. Sonra da hər il oxuduqlarını təkrar etməlisən. Təbii ki, yüksək zehni qabiliyyətin, istedadın da olmalıdır, çünki təkcə oxumaqla hər şey bitmir. Digər tərəfdən, gərək oxumağa həvəsin, marağın, möhkəm iradən olsun ki, yüksək nəticə əldə edə biləsən. Repetitor köməyinə də müraciət etmək olar.

***- Orta məktəbi yaxşı oxuyanın repetitora nə ehtiyacı var?***

- Orta məktəbi yaxşı oxuduğum üçün mənə repetitorların köməyilə hazırlaşmağa bir il kifayət etdi. Bu fikirdəyəm ki, qəbula hazırlıqda repetitorların da öz rolu, öz yeri var. Repetitor abituriyentə düzgün istiqamət verir və onun özünəinam hissini artırır. Əvvəlki illərdə keçilənləri təkrar etdirir, oxuduqlarını daha sistemli bir şəkildə mənimsəməyə kömək edir. Test tapşırıqlarını həll edərkən başa düşmədiklərini aydınlaşdırır, müxtəlif həll yollarını öyrədir.

***- Valideynlərinin qəbula hazırlığında nə kimi rolu olub?***

- İmtahana hazırlıq prosesində valideynlərim mənim yaxşı hazırlaşmağım üçün, demək olar ki, hər cür şərait yaratmışdılar.

***- Sizcə, hazırlıq kursunda, yoxsa repetitorla hazırlaşmaq daha səmərəlidir?***

- Hər ikisi səmərəlidir. Hər ikisində müəllimlər çalışır ki, abituriyenti yaxşı hazırlaşdırsınlar. Çünki burada müəllimin imici, ad-sanı məsələsi də var: yetirməsinin uğuru müəllimə baş ucalığı gətirir.

***- İxtisas seçimini kimlərin məsləhəti ilə etdiniz?***

- Bu ixtisası valideynlərimin, qohumlarımın məsləhəti ilə seçmişəm. Valideynlərim mənim bu ixtisasa qəbul olmağımı ilk əvvəl istəmirdilər. Anam mənim həkim, atam isə ya jurnalist, ya da xarici dil mütəxəssisi olmağımı arzulayırdı. Lakin onlar mənim bu ixtisasa çox həvəsli olduğumu gördükdən sonra mənə nəinki mane olmadılar, əksinə dəstək verdilər. Abituriyent istədiyi ixtisasa getsə, daha uğurlu nəticə əldə edə bilər. Valideynlər ixtisas seçimində övladlarına təzyiq etməməlidirlər, çünki məcburiyyət altında heç bir uğurlu nəticə əldə edilə bilməz.

***- Gələcək abituriyentlər yüksək nəticə əldə etmək üçün nə etməlidirlər?***

- Onlar məktəb vaxtından qarşılarına konkret məqsəd qoymalı, düzgün ixtisas seçimi aparmalı, sonra seçdikləri ixtisas qrupuna aid fənlər üzrə hazırlıq üçün vaxt bölgüsü aparmalıdırlar. İxtisas seçimi ilə bağlı ətrafda səslənən fikirlərə qulaq asmalı, ancaq, hər şeydən əvvəl, öz ürəklərinin hökmü ilə hərəkət etməlidirlər. Çünki bu seçim onların gələcək həyatıdır, taleyidir.

Qəbula hazırlaşanlar vaxtlarının çoxunu dərslərə ayırmalı və bunu qurtarmamış başqa işlərə vaxt sərf etməməlidirlər. Keçilən dərsləri təkrarlamaq daha yaxşı nəticə verir. Çoxlu test tapşırıqları həll etməlidirlər. Ancaq özlərini çox da yormamalıdırlar. Bütün sınaq imtahanlarına getməlidirlər. Yeri gəlmişkən təklif edərdim ki, gələcəkdə sınaqların sayı artırılsın, suallar da bir az çətinləşdirilsin. Amma bununla belə uşaqların imtahandakı həyəcanı və vaxtı nəzərə alınmalıdır. Hazırlıq

prosesində müəllimlərin və valideynlərin abituriyentə kömək olması, ona dəstək verməsi də vacib şərtlərdəndir. Gələcək abituriyentlər əziyyətə dözməli, yorulmadan çalışmalıdırlar. Məqsədə çatanda, uğur qazananda çəkilən əziyyət yaddan çıxır, üstəlik o, hədsiz sevinc, qürur hissi ilə əvəzlənir. Bir də məsləhət görürəm ki, şagirdlər "Abituriyent" jurnalının buraxılışlarından mütəmadi istifadə etsinlər.

***- Qəbul imtahanının təşkilindən, gedişatından razı qaldınız?***

- İmtahan qaydalara uyğun keçdi. Abituriyentlərin öz biliklərini nümayiş etdirməsi üçün gözəl şərait var idi. Bir-birinə mane olma halları yox idi. Bu ondan irəli gəlirdi ki, nəzarətçilər öz üzərlərinə düşən işi məsuliyyətlə yerinə yetirirdilər. Şəxsən mən bizim otaqda imtahanın gedişi zamanı heç bir qayda pozuntusuna rast gəlmədim. Deyərdim ki, yüksək bal toplamağımda bu cür şəraitin də böyük rolu olub. İmtahan sualları isə bütün proqramı əhatə edirdi. Onların bir çoxu çətinlik dərəcəsinə görə mürəkkəb idi. Belə sualları düzgün cavablandırmaq üçün bilikdən əlavə həm də çox diqqətli olmaq, məntiqi düşüncəyə malik olmaq lazım idi.

***- Deyirlər hər sahədə olduğu kimi, qəbula hazırlıqda da inamın çox rolu var. Qəbul imtahanında yüksək bal toplayacağına inanırdınızmı?***

- Əlbəttə, abituriyent qəbul imtahanlarına ciddi hazırlaşırsa, yüksək nəticə göstərəcəyinə də inanmalıdır. Bu baxımdan inam insanı məqsədə doğru aparan güclü amildir–stimuldur. Yüksək nəticə əldə etmək üçün məndə inam hissinin yaranmasında müəllimlərimin və valideynlərimin də çox rolu olub.

***- Başqalarından biliyinizə, istedadınıza, yoxsa təcrübənizə görə fərqlənirsiniz, yaxud heç fərqlənmirsiz?***

- Özümü başqalarından fərqləndirmək istəməzdim. Məncə, abituriyentlər arasında fərq o qədər də böyük deyil. Sadəcə, kiminin çalışqanlığı çoxdur, kiminin məntiqi güclüdür.

***- Yüksək nəticə əldə etmək üçün gələcək abituriyentlərə daha nələri məsləhət görərdiniz?***

- Yüksək nəticə üçün şagirdlər məktəb vaxtlarından yaxşı oxumalıdırlar. Müəllimlərə diqqətlə qulaq asmalı və hər zaman onlardan nəsə öyrənməyə çalışmalıdırlar. Son bir il ərzində isə xüsusilə çox çalışmaq və testlərlə çox işləmək lazımdır. Bu zaman məntiqi testlərə daha çox üstünlük verməlidirlər. Nəzəri məsələlərə xüsusi diqqət yetirməlidirlər, çünki onları bilmədən testləri həll etmək mümkün deyil.

Eyni zamanda testləşmənin texniki tərəflərinə – kodlaşdırmaya da diqqətli olmalıdırlar. Çünki düz bildiyin sualı diqqətsizliyin ucbatından səhv yaza və ya səhv köçürə bilərsən.



Salahlı Aygül Habil qızı Naxçıvan Muxtar Respublikasının Şahbuz rayon Kükü kənd məktəbini bitirib. I ixtisas qrupu üzrə 690 balla Bakı Dövlət Universitetinin "Kompyuter elmləri" ixtisasına qəbul olub.

***- I ixtisas qrupu üzrə qəbul imtahanında ən yüksək nəticə göstərən iki abituriyentdən birisiniz. Başqalarından, necə deyərlər, bir neçə addım öndəsiniz. Bu fərqi nə ilə izah edirsiniz?***

- Bəzi şagirdlər ali məktəblərə 10 və ya 11-ci sinifdən hazırlaşmağa başlayırlar. Mən isə orta məktəbdə aşağı siniflərdən yaxşı oxumuşam. Bunun da bəhrəsini gördüm. Fikrimcə, hər kəs bu şərəfə yorulmadan çalışmaq, sistemli oxumaq sayəsində nail ola bilər. Mənim əvvəldən məqsədim ən yüksək nəticə – 700 bal toplamaq idi. Bu məqsədə çatmaq üçün ötən illərin "Abituriyent" jurnallarında dərc olunan, sınaq imtahanlarında istifadə edilən testlər, həmçinin siniflər üçün test toplularındakı tapşırıqlar üzərində ciddi işləyirdim. Bütün bunların hazırlıq prosesində və qəbulda mənə çox böyük köməyi oldu. Son 1 il ərzində özümü tamamilə dərslərə həsr etdim. Bütün günümü oxumaqla keçirir, əlavə işlərə vaxt ayırmırdım. Ümumiyyətlə, qəbula hazırlaşan hər bir kəsin çox səmərəli vaxt bölgüsü olmalıdır. Çünki düşünülmüş vaxt bölgüsü olmayanda, belə demək mümkünsə, bir fənnin vaxtını digərinə sərf etmiş olursan. Mən hazırlıq prosesində fənlər arasında vaxt bölgüsünü müəllimlərin verdiyi tapşırıqlardan asılı olaraq aparırdım və bir qayda olaraq əsas fənlərə daha çox vaxt sərf edirdim. Dərsliklərdən əlavə TQDK-nın nəşr etdiyi tədris materiallarından istifadəyə də vaxt ayırırdım. Öz təcrübəmə əsasən məsləhət görərdim ki, şagirdlər dərsliklərlə kifayətlənməyib, əlavə materiallardan da, xüsusilə TQDK-nın nəşr etdiyi vəsaitlərdən də istifadə etsinlər.

***- Hazırlıq kursunda və repetitor yanında keçilən məşğələlər bir-birindən nə ilə fərqlənir?***

- Abituriyentlər ayrı-ayrı repetitorların yanına gedərkən həm xeyli vaxt itirir, həm də bütün işin repetitorun üzərində olduğunu düşünürlər. Mən bir il hazırlıq kursunda hazırlaşmışam. Hazırlıq kursunun üstün cəhəti ondan ibarətdir ki, abituriyentlərə vaxtdan daha səmərəli istifadə etməyə imkan verir. Yollarda sərf olunan vaxt itkisinin qarşısını alır. Hazırlıq kursunda bütün fənlər məktəbdə olduğu kimi eyni məkanda keçilir. Belə şəraitdə bir fənn üzrə məşğələdən digərinə keçmək üçün vaxt itirmirsən. Ayrı-ayrı fənlər üzrə müxtəlif repetitorların yanına gedəndə isə yollarda xeyli vaxt itirməli olursan. Bu cəhətdən kənd məktəblərində vəziyyət şəhər məktəblərindən daha əlverişlidir.

***- Qəbul imtahanında həyəcan keçirirdiniz?***

- Xeyr. Məsələ bundadır ki, abituriyent sınaq imtahanlarında nə qədər çox iştirak edirsə, onun həyəcanı bir o qədər azalır. Heç də təsadüfi deyil ki, mənim 1-ci sınaq imtahanında olan həyəcanım artıq sonuncu imtahanda yox idi. Qəbul imtahanında da özümü sonuncu sınaq imtahanında olduğu kimi hiss edirdim. Artıq təcrübəm olduğu üçün imtahanda elə də həyəcan keçirmədim. İmtahan şəraiti də abituriyentlərin əhval-ruhiyyəsinə müəyyən təsir göstərir. Yeri gəlmişkən bizim otaqda imtahanın normal şəraitdə keçməsi abituriyentlərin, o cümlədən mənim imtahanda özümü rahat və sərbəst hiss etməyimə müsbət təsir göstərdi.

***- Gələcək karyeranız barədə nə düşünürsünüz***?

- Qəbul olduğum kompyuter elmləri ixtisası müasir dövrün ən gərəkli peşələrindəndir. Azərbaycanın gələcək inkişafında bu ixtisasın xüsusi yeri olacaq. Bu gün bütün sahələrdə kompyuter texnologiyaları çox önəmli yer tutur. Müasir dövrdə ölkəmizin də kompyuterləşməyə ehtiyacı var. Mən də bu sahədə təcrübəli bir mütəxəssis olmaq və ölkəmizə fayda vermək istəyirəm.

***- Öz təcrübənizə əsaslanaraq gələcək abituriyentlərə nələri məsləhət görərdiniz?***

- Gələcək abituriyentlər, ilk növbədə hansı sahə üzrə mütəxəssis olmaq istədiklərini müəyyənləşdirməli, qarşılarına konkret məqsəd qoymalıdırlar. Sonra da məqsədlərinə nail olmaq üçün əzmlə çalışmalıdırlar. İstəyinə çatmaq üçün abituriyentdə səbr, özünəinam, iradə və sistemli çalışmaq qabiliyyəti olmalıdır. Əsas vəzifənin məhz öz üzərinə düşdüyünü dərk edərək səmərəli hazırlaşmalıdır. Hər kəs öz zəif nöqtəsini bilib, həmin yöndə daha çox işləməlidir. Təkrara çox vaxt ayırmaq, bilikləri maksimum dərinliklə mənimsəmək uğuru təmin edən əsas şərtlərdəndir.

Bundan əlavə, abituriyentlər TQDK-nın nəşrlərinə də müraciət etməlidirlər. Bu jurnalları oxumaqla ən azından qəbuldakı sualların səviyyəsini bilmək olur. Yalnız 11-ci sinifdə öyrənərəm düşüncəsi tamamilə səhvdir. Bütün fənləri, bünövrədən – aşağı siniflərdən öyrənmək lazımdır.



Axundlu Rəna Firəddin qızı Sumqayıt şəhər N.Gəncəvi adına texniki və təbiət elmlər təmayüllü liseyin məzunudur. II ixtisas qrupu üzrə 695 balla “Qafqaz” Universitetinin “Dünya iqtisadiyyatı” ixtisasına daxil olub.

***- Qəbul imtahanında belə yüksək nəticə əldə edəcəyinizə inanırdınızmı?***

- Öz gücümə həmişə inanmışam. Ancaq inam da zəhmətə bağlıdır. Çəkdiyin zəhmətin bəhrəsini gördükcə bu inam getdikcə möhkəmlənir. Mən artıq qəbula hazırlığın son mərhələsində qəti əmin idim ki, yüksək bal toplayacağam. Reallığa hesablanmayan, illüziyaya söykənən inam isə aldadıcıdır və adamı yarı yolda qoyar. Bu baxımdan 1-2 il hazırlaşmaqla yüksək nəticə əldə etməyə ümidvar olanlar yaxşı olar ki, səhvlərini tez başa düşsünlər.

***- Hazırlıq prosesində hansı üsul və vasitələrdən istifadə edirdiniz?***

- Mən qəbul imtahanına hazırlaşmağa başladığım ilk vaxtlar öz üsulumu, rejimimi hələ lazımınca müəyyənləşdirə bilməmişdim. Sonradan "Abituriyent" jurnalındakı tövsiyələrin və TQDK-nın nəşr etdiyi vəsaitlərin köməyilə öz hazırlıq proqramımı müəyyənləşdirdim. Dərsi oxuyarkən vacib yerlərin altından karandaşla xətt çəkirdim, mövzunu qurtardıqdan sonra oxuduqlarımı təkrar edirdim. Ümumiyyətlə, bütün mövzuları öyrənərkən onları təkrarlamağa çox yer vermək lazımdır. Dərsi öyrəndikdən sonra onu öz-özünə danışmaq da çox fayda verir. Çünki danışarkən özünü eşidirsən və mövzu daha yaxşı yadda qalır. Mən belə hazırlaşmışam və ola bilsin bunlar kimin üçünsə az, kimin üçünsə çox faydalı olsun.

Qəbul imtahanları üçün özümü heç nədən məhrum etməmişəm. Yaxınlarımızın dəvəti ilə

tədbirlərə, məclislərə, əyləncələrə də vaxt ayırmışam. Heç vaxt yorğun halda, yuxum gələ-gələ dərs oxumamışam. Ən azı gündə 5 saata qədər oxumaq tam kifayət edirdi. Ancaq dərslərdən kənar məşğələlərin də müəyyən həddi var. Məsələn, məsləhət görərdim ki gələcək abituriyentlər imtahana hazırlaşarkən televizora baxmasınlar. Çünki televizorda hər hansı bir verilişə maraq onların vaxtını çox ala bilər. Yaxşı olar ki, yorulduqlarını hiss edəndə musiqiyə qulaq assınlar. Ümumiyyətlə, hər bir şagird öz rejimini özü müəyyənləşdirməlidir.

***- Qəbul imtahanının sualları və imtahana ayrılan vaxt barədə nə deyə bilərsiniz?***

- Bu il II qrup üzrə imtahan suallarının arasında kifayət qədər yeni formada tapşırıqlar var idi. Bu mənim xoşuma gəldi. Məncə qəbula çətin suallar da salınmalıdır ki, abituriyentlərin səviyyələrini fərqləndirmək mümkün olsun. Yeri gəlmişkən, imtahan sualları orta məktəbin tədris proqramını əhatə edirdi və proqramdan kənar bir şey yox idi. İmtahana ayrılan vaxt da sualların cavablandırılması üçün kifayət etdi.

***- İxtisas seçiminə hansı amillər təsir edib?***

- İxtisas seçimini valideynlərimin köməyilə etmişəm. Onların istəyi ilə mənim istəyim üst-üstə düşüb.

***- Gələcək planlarınız?***

- Gələcək üçün çox böyük arzularım var. Başa düşürəm ki, qəbulda yüksək nəticə əldə etmək hələ başlanğıcdır. Bu nəticə ixtisasa yiyələnmək yolunda hələ ilk addımlardır. Çalışacağam ki, seçdiyim ixtisas sahəsində peşəkar bir mütəxəssis olum.

***- Gələcək abituriyentlərə daha nələri məsləhət görərdiniz?***

- Əziz şagirdlər, dərsləri oxuyarkən onları dərk etməyə çalışın, heç vaxt əzbərçi olmayın. Başa düşmədiyiniz sualları aydınlaşdırmadan onun üstündən keçməyin. Çoxlu qeydlər götürün. Testlər üzərində çox işləyin. Özünüzü yormayın, arada istirahətə də vaxt ayırın. Səs-küylü yerlərdə dərs oxumayın. Oxuyarkən də fikrinizi ancaq oxuduğunuz mövzuya cəmləyin. Özünüzdən heç vaxt razı olmayın, hər zaman biliklərinizi zənginləşdirin. Öz yolunuzu özünüz müəyyənləşdirin və bu yolla da qəbula hazırlaşın.

***- Qəbul imtahanı zamanı sizi qane etməyən məqamlar oldu?***

- Xeyr, imtahan yüksək səviyyədə təşkil edilmişdi. İmtahana çox ciddi nəzarət olunurdu. Heç bir neqativ halla rastlaşmadım. İmtahan sualları içərisində yeni formalı tapşırıqlar da var idi. Məncə, məktəb proqramını orta səviyyədə mənimsəyən hər bir abituriyent bu sualların çoxunu cavablandıra bilərdi. Ümumilikdə, qəbul imtahanının təşkili və gedişindən çox razı qaldım.

***- Yüksək nəticə əldə etmək üçün abituriyentdə hansı keyfiyyətlər olmalıdır?***

- Hər abituriyentin yüksək nəticə əldə etmək üçün özünün dərs oxumaq rejimi olmalıdır. İlk növbədə gərək aşağı siniflərdən möhkəm bilik bazan olsun. Məqsədyönlülük, qətiyyətlilik, ardıcıllıq, iradəlilik, səbr, çalışqanlıq, inam hissi, daim yüksək psixoloji ovqat, vaxtı düzgün və səmərəli bölmək bacarığı, yaxşı yaddaş, məntiqi düşünmə qabiliyyəti – yüksək bal toplamaq istəyən abituriyentdə bu keyfiyyətlər olmalıdır.

***- Abituriyentin yüksək bal toplamasında repetitorun rolu nə dərəcədədir?***

- Beş fənn üzrə vaxtı özümüz bölməliyik. Repetitor yanına getməyin önəmi də var, məhdudiyyəti də. Burada hər şey abituriyentin ayrı-ayrı fənlər üzrə hazırlıq səviyyəsindən asılıdır. Bəzi abituriyentlər hansısa fənndən hazırlığa getməyəndə, o fənnə lazımınca fikir vermirlər. Repetitor yanına getmək abituriyentin məsuliyyətini artırır. Yaxşı repetitor abituriyenti düzgün istiqamətləndirir və ondan tədris etdiyi fənni yaxşı mənimsəməsini tələb edir.

***- Sizcə nəyə görə hər il lisey və ya gimnaziyaları bitirən məzunlar digər orta məktəb məzunları ilə müqayisədə daha yüksək nəticə göstərirlər?***

- Çünki lisey və gimnaziyalarda daha ciddi təhsil rejimi mövcuddur. Burada şagirdlərə bütün fənlər eyni səviyyədə, eyni tələbkarlıqla öyrədilir və bu da onların dərslərə qarşı daha məsuliyyətli olmasını təmin edir. Fərq lisey və gimnaziyalarda dərslərin daha ciddi qaydada keçilməsindədir.

***- Nə üçün ali təhsili dövlət ali məktəbində deyil, özəl ali məktəbdə almağı üstün tutdunuz?***

- Aldığım məlumata görə "Qafqaz" Universitetində ingilis dili yüksək səviyyədə tədris olunur. Mən söz ehtiyatımı zənginləşdirmək üçün həmin universitetə üstünlük verdim. Bildiyimə görə bu universitetdə müasir dövrün tələblərinə uyğun təhsil almaq üçün istənilən şərait var.

***- Qəbul imtahanlarının test üsulu ilə keçirilməsindən razısınız?***

- Test üsulu mükəmməl üsuldur və abituriyentlərin biliklərini tam üzə çıxarmasına imkan yaradır. Amma yeri gəlmişkən bir istəyimi bildirmək istəyirəm: imtahanlarda açıq suallar qoyulsa, məntiqi sualların sayı artırılsa, bu, abituriyentlərin biliyini qiymətləndirmək üçün əlavə imkanlar yaradar.



Musayeva Fəridə Mehman qızı Bakı Türk liseyinin (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi) məzunudur. III ixtisas qrupu üzrə 700 balla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquqşünaslıq" ixtisasına qəbul olub.

***- Siz qəbul imtahanlarında ən yüksək nəticə əldə edən iki abituriyentdən birisiniz, bu zirvədə özünüzü necə hiss edirsiz?***

- Məşhur Osmanlı hökmdarı Fateh Mehmet İstanbulu fəth edəndən sonra ona sual verirlər ki, sən necə oldu ki, İstanbulu fəth etdin. O da cavabında bildirir ki, əvvəlcə İstanbul məni fəth etdi. Mən də 700 ballıq nəticəni o qədər istəyirdim ki, özümü ona öyrəşdirmişdim. TQDK-nın sınaqlarında da iki dəfə 700 bal toplamışdım deyə artıq özümü maksimum bala hazır hesab edirdim. Gizlətmirəm, mən rekord nəticə əldə etməyi çox istəyirdim və bu istəyimə çatmaq üçün əlimdən gələn hər şeyi etdim. Çox ciddi rejimlə çalışırdım, heç nəyi təxirə salmırdım, hər şeyə vaxtında əməl edirdim. Heç vaxt tənbəllik etmirdim.

***- Hazırlıq prosesində fənlər arasında vaxtı necə bölürdünüz?***

- Tarixdən çətinlik çəkirdim deyə, ən çox vaxtımı bu fənnə ayırırdım. İngilis dili, ana dili, riyaziyyatdan problemim olmadığı üçün onlara nisbətən az vaxt ayırırdım. Axşam saat 11-12-də yatır, əvəzində səhər tezdən durub dərs oxuyurdum. Kitablarda əsas yerlərin altından xətt çəkir, kənarında əsas yerləri qeyd edirdim ki, material daha yaxşı yadımda qalsın. Bundan əlavə, çoxlu test tapşırıqları işləyirdim, ayrı-ayrı fənlərdən əlimə düşən bütün testləri həll edirdim. Yalnız dərsliklərlə, əsas tədris materialları ilə kifayətlənmirdim. Televiziyada imtahanlara aid eşitdiyim hansısa xəbərin üstündən keçmirdim. Bilmədiyim materialları, mənbələri axtarıb tapır, oxuyur və yüz faiz mənimsəyirdim. Ancaq onu da deyim ki, əgər məktəbdə 11 il ərzində yaxşı oxumasaydım, son 1-2 ildə hazırlaşmaqla belə nəticə əldə edə bilməzdim. Məktəbdə əla oxumuşdum deyə, hazırlıq dövründə hər şey mənə təkrar kimi gəlirdi. Buna görə də repetitorla bir il hazırlaşmaq kifayət etdi.

***- Belə bir fikir var ki, ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə əldə etmək istəyən abituriyent hazırlıq dövründə özünü hər şeydən – bütün kənar məşğuliyyətlərdən təcrid etməlidir? Buna münasibətiniz?***

- Bu fikirdə müəyyən həqiqət var. Mən də qəbula hazırlaşan müddətdə televizora baxmırdım, internetdən kənar idim, telefondan istifadə etmirdim. Evdə olan hadisələrdən mənim çox vaxt xəbərim olmurdu. Özümü tam şəkildə dərslərə həsr etmişdim. Bir il ərzində heç bir toya, qohum evinə getmədim. Mənim üçün vaxt çox önəmli idi və əlavə işlər çıxanda həmin vaxtın itdiyinə təəssüflənirdim. Dərsə başlayanda heç bir kəs mənə mane ola bilməzdi.

***- Abituriyentin sınaq imtahanlarında iştirak etməsinin nə kimi faydası var?***

- Abituriyent mümkün qədər bütün sınaq imtahanlarında iştirak etməlidir, çünki bu sınaqlar hər cəhətdən qəbulun modelinə uyğun keçirilir. Həm də abituriyent sınaq imtahanlarında öz səhvlərini, zəif cəhətlərini tapır və sonradan onların aradan qaldırılması üzərində çalışır. Digər tərəfdən sınaq imtahanında uğurlu nəticə əldə etmək onda özünə inamı daha da artırır.

***- Abituriyentin qəbul imtahanına hazırlığında valideynlərin rolu nə dərəcə əhəmiyyətlidir?***

- Valideynlər abituriyentin qəbul imtahanına hazırlığı üçün hər cür şərait yaratmalı, ona maksimum diqqət və qayğı göstərməlidirlər. Hərdən zəiflik göstərib toya, qonaqlığa getmək istəyəndə ona dərslərin daha vacib olduğunu xatırlatmalıdırlar. Dərs oxuyarkən onun fikrini yayındırmamaq üçün televizorun səsini azaltmalıdırlar. Onun yanında əlavə söhbətlər etməsələr yaxşıdır. Çalışmalıdırlar ki, uşaq hər cür qanqaraldıcı problemdən, xəbərdən uzaq olsun.

***- Qəbul imtahanının təşkili, keçirilməsi və testlərin məzmunu barədə rəyiniz?***

- İmtahan normal bir şəraitdə keçdi və heç bir neqativ hala rast gəlinmədi. Suallar dərslikləri, tədris proqramlarını əhatə edirdi. İmtahan suallarının çoxu "Abituriyent" jurnalının 1-ci sayında verilən test modelinə uyğun idi.

***- Gələcək abituriyentlərə məsləhət və tövsiyələriniz?***

- Əgər şagirdlər gələcək karyeralarını ali təhsil almaqda görürlərsə, onlar qəbul imtahanlarına sistemli hazırlaşmalı, bir mövzunu tam öyrənmədən başqasına keçməməli, əzbərçilikdən qaçmalı, mövzuları dərk etməklə mənimsəməlidirlər. Hər zaman özlərindən güclülərlə yarışmalı, onlarla rəqabətə girməlidirlər. Çünki rəqabət daha yüksək nəticə göstərməyə əlavə stimul yaradır. Bundan əlavə testlərlə öz biliklərini müntəzəm yoxlamalı, TQDK-nın keçirdiyi bütün sınaq imtahanlarında iştirak edərək öz zəif cəhətlərini müəyyən etməli və onların aradan qaldırılmasına diqqəti

yetirməlidirlər. Abituriyent yalnız axırıncı 1-2 ili deyil, aşağı siniflərdən dərsləri yaxşı oxumalı və müəllimlərin verdiyi tapşırıqları yerinə yetirməlidir. Özünə inanmalı və qarşısına ən yüksək nəticə göstərməyi məqsəd qoymalıdır. Məqsəd nə qədər yüksək olsa, nəticə də o qədər ürəkaçan olar. Atalarımız: niyyətin hara, mənzilin ora, – deyiblər.

***- Yüksək bal toplamaqda müəllimlərin, yoxsa abituriyentin zəhməti daha çoxdur?***

- Əlli-əlliyə deyərdim. Çünki qəbul imtahanlarına hazırlıq prosesində müəllimin də, şagirdin də öz rolu var. Müəllim nə qədər yaxşı olsa da, abituriyent dərsə laqeyd yanaşsa, tapşırıqları yerinə yetirməsə heç bir nəticə olmayacaq. Və yaxud əksinə. Şagird nə qədər çalışsa da, müəllimi güclü olmasa və dərsləri yaxşı öyrətməsə uğurlu nəticə alınmayacaq.

***- Ali məktəbə qəbul olmaq istəyən abituriyentin prinsipcə repetitor yanına getməsi vacibdirmi?***

- Məncə repetitorsuz da müəyyən nəticə əldə etmək olar. Maksimum nəticə əldə etmək üçün isə, repetitor köməyi olmalıdır. Müstəqil şəkildə hazırlaşmaqla 700 ballıq nəticəni əldə etmək olmaz. Ancaq bu da var ki, lisey və gimnaziyalarda oxuyan şagirdlərin bir çoxu repetitor yanına getmədən də uğurlu nəticələr əldə edə bilirlər. Çünki onlarda tədris daha güclü qurulub, dərsə davamiyyətə ciddi riayət olunur, əsl təhsil mühiti mövcuddur.

***- Deyirlər ki, zirvəyə qalxmaq əsas deyil, əsas zirvədə qalmaqdır. Gələcəkdə qalxdığınız bu zirvədə qalmaq üçün nələri edəcəksiniz?***

- Məktəbi fərqlənmə attestatı ilə bitirmişəm və daxil olduğum Dövlət İdarəçilik Akademiyasını da qırmızı diplomla bitirmək arzusundayam. Bütün təhsil pillələri – bakalavr, magistratura, doktorantura üzrə təhsilimi davam etdirmək arzusundayam. Magistr diplomunu isə Avropanın ən nüfuzlu universitetlərindən birində almaq istəyərdim. Gənc yaşda hüquq elmləri doktoru olmaq və ehtiyacı olan vətəndaşların hüquqlarını qorumaq istəyirəm. İnanıram ki, savadlı bir hüquqşünas olaraq ölkənin gələcək inkişafına layiqli töhfələr verəcəyəm.



Ağaməmmədov Ucal Novruz oğlu Zəngilan rayon 18 saylı orta məktəbini bitirib. III ixtisas qrupu üzrə 700 balla Bakı Dövlət Universitetinin “Hüquqşünaslıq” ixtisasına qəbul olub.

***- Necə oldu ki, yüksək bal toplaya bildiniz? Bunun sirri nədədir?***

- Burada elə bir sirr yoxdur. Sadəcə, qarşıma qoyduğum məqsədə çatmaq üçün məndən asılı olan hər şeyi etmişəm. Eyni zamanda, müəllimlərin verdiyi tapşırıqlara vaxtı-vaxtında əməl etmişəm, “Abituriyent” jurnalından, TQDK-nın nəşr etdiyi vəsaitlərdən səmərəli istifadə etmişəm. Hər bir fənn üzrə ardıcıl surətdə test tapşırıqlarının həlli üzərində çalışmışam. Aşağı siniflərdən yaxşı oxumağımın hazırlığımda çox mühüm rolu olub.

***- Test suallarının məzmunu haqqında nə deyə bilərsiniz?***

- Qəbul imtahanında bütün fənlər üzrə suallar məktəb proqramını əhatə edirdi. İmtahan sualları içərisində asanları da, orta və çətin səviyyəliləri də vardı. Orta məktəbdə yaxşı oxuyan şagird üçün test sualları bir növ təkrar hesab olunur. Qəbul imtahanına hazırlıqda çox oxumaq yox, səmərəli oxumaq vacib şərtdir. Əsas kəmiyyət deyil, keyfiyyətdir.

***- Gələcək abituriyentlərə məsləhətləriniz?***

- Qəbul olmaq istədikləri ixtisası əvvəlcədən müəyyənləşdirsinlər. Aşağı siniflərdən yaxşı bildikləri fənlərin aid olduğu qrupu seçsələr, müəllimlərin tapşırıqlarını mütəmadi yerinə yetirsələr, qəbula hazırlıq onlar üçün çətin olmaz. Zəif bildikləri fənlər üzrə ya hazırlıq kursuna, ya da repetitor yanına getməklə hazırlaşmaq lazımdır. Bununla belə hər bir abituriyent öz üzərində müstəqil surətdə də çalışa bilər.

***- Bundan sonrakı təhsil planlarınız necədir? Gələcək karyeranızı necə görürsüz?***

- Əlbəttə, 700 bal rekord nəticədir, amma bu, hər şey demək deyil, sadəcə başlanğıcdır.

Əsas məqsədim ali məktəbi əla qiymətlərlə bitirməkdir. II kursdan sonra təhsilimi xaricdə davam etdirmək istəyirəm. Yaxşı hüquqşünas olmaq üçün var gücümlə çalışacağam. Ancaq bunun üçün gələcək imtahanlardan da yüksək nəticələr əldə etməliyəm. Mən inanıram ki, tək mən yox, bütün yüksək bal toplayan abituriyentlər belə davam etsələr, gələcəkdə ölkəmiz üçün layiqli mütəxəssislər olacaqlar.

***- Yüksək nəticə göstərən abituriyentlərdə hansı xüsusiyyətlər olmalıdır?***

- Hər bir abituriyent fərddir. Fərdlər bir-birindən özünəməxsus keyfiyyətləri ilə fərqlənir. Onların bir qismində güclü yaddaş, digərində əzbərləmə qabiliyyəti yüksək olur. Şagird var ki, dərsi bir dəfə oxumaqla bilir, bir başqası isə həmin dərsi 3-4 dəfə oxumalı olur. Amma istənilən halda güclü iradə və zəhmət sayəsində yüksək nəticə əldə edilə bilər. Abituriyent yüksək nəticə əldə etmək üçün ilk növbədə qarşısına aydın məqsəd qoymalı və bu məqsədə nail olmaqdan ötrü var gücü ilə çalışmalıdır. Məqsədyönlülük, çalışqanlıq, iradə, mükəmməl bilik, qətiyyət – bax bunlardır abituriyenti yüksək uğura aparan xüsusiyyətlər.

***- Yüksək nəticə əldə etməkdə bəxt nə dərəcədə rol oynayır?***

- Məncə, yüksək nəticədə bəxtin heç bir rolu yoxdur. Heç bir halda 700 ballıq nəticəni bəxt sayəsində əldə etmək mümkün deyil. Yaxşı biliyi, bacarığı olmayana bəxt nə kömək edə bilər ki?! Qarşına qoyduğun məqsəd üçün çalışmısansa və sonda yüksək nəticə əldə etmisənsə, bu, bəxt deyil, çəkdiyin zəhmətin halal bəhrəsidir.

***- Yüksək bal toplamaq üçün əyalət və şəhərdə verilən təhsilin fərqi varmı?***

- Əlbəttə, şəraitlərindəki fərq onların təhsilinə qismən də olsa təsir göstərir. Ancaq mənim fikrimcə, şərait heç də həlledici amil deyil. Çox şey abituriyentin özündən asılıdır. Yüksək nəticə əldə etmək istəyən abituriyent özü üçün lazımi şəraiti özü yaratmağa çalışmalıdır. Rayonlarımızda o qədər abituriyentlər var ki, onların şəraiti olmasa da, yüksək bal toplayırlar.



Zaman Aydan Zakir qızı Bakı şəhəri Bakıxanov qəsəbəsi 94 nömrəli orta məktəbi bitirib. IV ixtisas qrupu üzrə 695 balla Azərbaycan Tibb Universitetinə daxil olub.

***- İmtahanda yüksək nəticə əldə etmək üçün abituriyentdə hansı keyfiyyətlər olmalıdır?***

- Bunun üçün abituriyentdə ən başlıcası dərin biliklə yanaşı, güclü məntiqi təfəkkür olmalıdır. Çünki bəzi sualların cavablandırılması üçün bilik kifayət etmir, həm də məntiqi düşüncə tələb olunur.

***- Orta məktəbi əla qiymətlərlə bitirən şagirdlərin hamısı ali məktəbə qəbul ola bilmir. Bunun səbəbi nədir?***

- Bəli, təəssüf ki, attestat qiymətləri əla olan abituriyentlərin heç də hamısı istənilən nəticəni əldə edə bilmir. Deməli, attestatdakı hər bir yüksək qiymətin arxasında yüksək də bilik dayanmalıdır.

***- Hansı abituriyentlərin yüksək nəticə qazanmaq şansı daha çoxdur?***

- Yüksək biliyi, bacarığı, intellektual bazası olan hər bir şagird yüksək nəticə əldə edə bilər. Ancaq bu şərtlə ki, şagirdlər ixtisas seçimində diqqətli olsunlar. Aşağı siniflərdən hansı fənlər üzrə daha yüksək bilik və bacarıq qazanıblarsa, ona uyğun da ixtisas qrupu seçsinlər.

***- Qəbul imtahanının gedişi sizi qane etdimi?***

- İmtahanın gedişatından tam razı qaldım. Hər şey çox yüksək səviyyədə təşkil olunmuşdu. Suallar çətin deyildi. Ayrılan vaxt da yetərli idi.

***- Abituriyentin repetitor xidmətindən istifadə etməsi vacibdirmi?***

- Repetitorsuz da hazırlaşmaq olar, amma yüksək nəticə göstərmək üçün repetitor köməyinə bəzən ehtiyac yaranır. Repetitor abituriyentə dəstək olur, istiqamət verir, biliyini sistemləşdirməkdə kömək edir. Mənim fikrimcə, yüksək nəticə göstərmək üçün ən başlıca şərt şagirdin orta məktəbdə qazandığı möhkəm bilik bazasıdır. Yalnız iki il ərzində hazırlaşmaqla və ya repetitor yanına getməklə yüksək nəticə əldə etmək olmaz.

***- Ali məktəbə qəbul olmaq vasitədir, yoxsa məqsəd?***

- Fikrimcə, ali məktəbə qəbul yüksək təhsil almağın hələ bünövrəsidir, yəni yaxşı mütəxəssis olmaq üçün vasitədir. Mənim əsas məqsədim gələcəkdə peşəkar həkim kimi formalaşıb insanların sağlamlığının keşiyində durmaqdır.

***- Gələcəkdə qəbul qaydalarında hansı dəyişikliklərin olmasını istərdiniz?***

- Məncə, qəbul qaydalarında hər hansı əsaslı dəyişikliyə ehtiyac yoxdur. Test sistemi artıq təhsilimizin bütün pillələrində tətbiq olunur. Söhbət yalnız onun təkmilləşdirilməsindən gedə bilər. Bunu da TQDK vaxtı çatdıqca çox düşünülmüş şəkildə, uğurla həyata keçirir.

***Müsahibələri apardı: Könül Cəfərova***

# QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRƏN GƏNCLƏRLƏ GÖRÜŞLƏR

Bu il respublikamızın ali məktəblərinə keçirilən qəbul imtahanlarında 110 minə yaxın abituriyent iştirak etmişdir. Onlardan 39,2% 0-100, 23,6% 100-200, 16,5% 200-300, 16,6% 300-500, 4,1% isə 500-700 bal toplamışdır. Abituriyentlərdən 996 nəfəri 600-baldan yuxarı nəticə göstərmişdir. Yüksək ballılar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edirlər. 600-dən yuxarı bal toplayanlar sırasında mülki ali məktəblərlə yanaşı Milli Təhlükəsizlik Nazirliyinin H.Əliyev adına Akademiyasına (4 nəfər) və Polis Akademiyasına (6 nəfər) daxil olanlar da vardır. Yüksək nəticə göstərənlər I qrupda 164, II qrupda 218, III qrupda 391, IV qrupda 223 nəfərdir. 2 nəfər isə maksimal nəticə – 700 bal toplamışdır. Onların ikisi də III ixtisas qrupunun abituriyentləridir.

2009/2010-cu tədris ili üçün ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən və namizədliyi TQDK tərəfindən Prezident təqaüdünə təqdim edilən 102 gəncə Azərbaycan Respublikası Prezidentinin 24.09.2009-cu il tarixli Sərəncamı ilə Prezident təqaüdü təyin edilmişdir.

Onların 29 nəfəri Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, 25 nəfəri Azərbaycan Tibb Universitetinə, 18 nəfəri Bakı Dövlət Universitetinə, 12 nəfəri "Qafqaz" Universitetinə, 9 nəfəri Azərbaycan Dövlət Neft Akademiyasına, 6 nəfəri Azərbaycan Dövlət İqtisad Universitetinə, 2 nəfəri Xəzər Universitetinə, 1 nəfəri isə Naxçıvan Dövlət Universitetinə qəbul olmuşdur.

***Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ənənəsinə sadiq qalaraq bu il də ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərmiş gənclərlə görüşlər təşkil etmişdir. Görüşlər ixtisas qrupları üzrə sentyabrın 18-də, 19-da, 20-də və 21- də keçirilmişdir.***



*I qrup*



*II qrup*



*III qrup*



*IV qrup*

# TQDK-NIN SƏDRİ MƏLEYKƏ ABBASZADƏNİN TƏBRİK VƏ TÖVSİYƏLƏRİ



- Əziz gənclər, ali məktəblərə qəbul imtahanlarında əldə etdiyiniz yüksək nailiyyətlər münasibətilə sizi təbrik edir və hamınıza gələcək həyatınızda uğurlar arzulayıram. Sizin əldə etdiyiniz bu müvəffəqiyyəti bundan sonrakı fəaliyyətinizin etibarlı bünövrəsi kimi qiymətləndirirəm. Qəbul imtahanlarının məqsədi ölkəmizin gələcəyi olan bilikli və istedadlı gənclərin üzə çıxarılmasıdır. Siz bu imtahanlarda ən yüksək nəticələr əldə etmisiniz. Ancaq bu nəticələrlə kifayətlənməyib biliklərinizi artırmaq üçün bundan sonra da səylə çalışmalı və seçdiyiniz ixtisasa mükəmməl yiyələnməlisiniz. Siz özünüzü beynəlxalq standartlara, müasir dövrün tələblərinə uyğun hazırlamalısınız. Gələcək rəqabətə hazır olmaq üçün hər zaman öz üzərinizdə işləməlisiniz. Zamanın tələbinə uyğun olaraq hər bir gəncin ən azı bir xarici dili sərbəst bilməsi vacibdir. Mən yüksək nəticə göstərən siz gənclərin ölkənin gələcək inkişafına töhfələr verəcəyinə inanıram.

Bundan sonra kitabları örtüb hər şeyin artıq bitdiyini fikirləşmək düzgün deyil. “Hər şeyi bilirəm”-deyərək öz üzərinizdə işləməyi dayandırsanız, bu vaxta qədər çəkdiyiniz bütün əmək hədər gedər. Siz bundan sonra da oxumağınızla sübut etməlisiniz ki, ali məktəbə ağlınız, savadınız sayəsində daxil olmusunuz. Özü də yalnız ali məktəbdə yox, onu bitirəndən sonra da siz öz sahənizlə bağlı bütün məsələlərlə maraqlanmalı, yeniliklər axtarmalısınız. İnsan həyatının hər bir vaxtı və dəqiqəsi çox qiymətlidir. Ona görə vaxtınızı mənalı keçirməyə çalışın. Bünövrə yaxşı qoyularsa, sonrakı nəticələr də gözəl olar.

İctimaiyyət təkcə idman və ya televiziya yarışlarının qaliblərini yox, bilik və bacarıq yarışlarında ən yüksək nəticə göstərən öncülləri də tanımalıdır. Ona görə siz gənclər bu nailiyyəti axırıncı nəticə kimi qəbul edib, yalnız bununla kifayətlənməli deyilsiniz. Siz bugünkü tələbələr sabahın dövlət quruculuğunda iştirak edən şəxslər, dövlət rəsmiləri və alimlər olacaqsınız.

Siz elə oxumalısınız ki, sizin kiçik bacı və qardaşlarınız – gələcək abituriyentlər sizdən nümunə götürüb nəticə çıxara bilsinlər. Yadınızda qalsın, insanın ən əsas resursu onun vaxtıdır. Bu vaxt düzgün qaydada bölünsə və lazımi şəkildə istifadə olunsa, uğurlu nəticələr əldə olunar. Siz indi ən varlı insanlarsınız, çünki hələ gəncsiniz və həyatınızı düzgün qurmağınız öz əlinizdədir. Əməklə, zəhmətlə çox şeylər əldə edə bilərsiniz. Zəhmətlə əldə olunan xoşbəxtliyin əvəzi yoxdur.

Bir daha sizi ürəkdən təbrik edirəm. Ümidvaram ki, hamınız ölkəmizin gələcək inkişafına layiqli töhfələr verə biləcək yüksək səviyyəli mütəxəssislər olacaqsınız.

*Görüşün davamında sənəd qəbulu, ixtisas seçimi, sınaq imtahanları, qəbul imtahanlarının təşkili, test suallarının məzmunu və qəbul kampaniyasının digər məsələləri üzrə geniş fikir mübadiləsi aparıldı. Tədbirdə bilik yarışının öncülləri qəbul imtahanlarının təşkilindən razı qaldıqlarını, sualların proqram materialını və dərslikləri əhatə etdiyini bildirdilər. Daha sonra TQDK-nın sədri M.Abbaszadə, sədr müavini Namiq Babayev, şöbə müdirləri Tariyel Bədəlov və Arzu Bağırov bilik yarışı öncüllərini maraqlandıran sualları cavablandırdılar. Yüksək ballılar öz arzu, fikir, rəy və təkliflərini bildirdilər. Onlardan bəzi nümunələri təqdim edirik.*

***Könül Cəfərova***

# İMTAHANLARIN MƏZMUNU, TƏŞKİLİ, GEDİŞİ İLƏ BAĞLI RƏY VƏ TƏKLİFLƏRDƏN

**Şəfisoy Səməd** (Azərbaycan Dövlət Neft Akademiyasının "Neft-qaz mühəndisliyi" ixtisasının tələbəsi): – *Sənəd qəbulu prosesinin internet vasitəsilə aparılmasını çox yüksək qiymətləndirirəm. Bu, abituriyentlərin işini xeyli asanlaşdırır və vaxt itkisinin qarşısını alır. Yaxşı olardı ki, qəbul olanların ali məktəblərdə qeydiyyatı da internetlə aparılsın.*

**Aslanlı Orxan** (Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasının tələbəsi): – *Sənəd qəbulu kampaniyasının internetlə aparılması tələbələr üçün rahat şərait yaratdı. Bu qaydanın tətbiq olunması ilə rayonlarda, bölgələrdə bir sıra çətinliklər aradan qalxdı. TQDK tərəfindən abituriyentlərə kömək məqsədilə metodiki vəsaitlərin nəşri də təqdirəlayiq haldır. Onların imtahanlara yaxşı hazırlaşmasında bu vəsaitlərin çox böyük rolu var. Odur ki, bütün fənlər üzrə belə vəsaitlər hazırlayıb çap etmək lazımdır.*

**Axundlu Rəna** ("Qafqaz" Universitetinin "Dünya iqtisadiyyatı" ixtisasının tələbəsi): – *Qəbul imtahanları ədalətli, şəffaf qaydada keçirildi, onların təşkilindən razı qaldım. İmtahan suallarının içərisində xeyli yeni formalı tapşırıqlar da var idi və bunlar "Abituriyent"in 1-ci sayında çap olunan model testlərə uyğun idi.*

**Abbaszadə Fərid** (Azərbaycan Dövlət Neft Akademiyasının "Proseslərin avtomatlaşdırılması" ixtisasının tələbəsi): – *Sınaq imtahanlarının sayının artırılmasını təklif edirəm. Abituriyentlərin qəbul imtahanına hazırlaşmasında onların çox böyük rolu var. Sınaqlarda iştirak edən abituriyent imtahan prosesinin texnologiyası ilə tanış olur və özünü imtahanlara psixoloji cəhətdən hazırlayır.*

**Yusifli Tural** (Bakı Dövlət Universitetinin "Kompyuter elmləri" ixtisasının tələbəsi): – *Məncə, I qrupa riyaziyyat fənnindən salınan test sualları asandır. Gələcəkdə sualların nisbətən çətinləşdirilməsi və qəbula riyazi induksiya, həndəsi fəza bölməsi ilə bağlı sualların da salınması yaxşı olardı.*

**Rəcəbov Rəcəb** (Xəzər Universitetinin "Maliyyə" ixtisasının tələbəsi): – *İmtahan suallarının çətinlik dərəcəsinə görə qruplaşdırılmasını və onlara fərqli bal verilməsini təklif edirəm.*

**Hüseynli Kənan** (Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasının tələbəsi): – *TQDK-nın çap etdiyi test kitabçalarının və vəsaitlərin abituriyentlərə çox böyük köməyi var. Gələcəkdə belə nəşrlərin sayını artırmaq lazımdır.*








# YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR

# I QRUP



### ƏHMƏDLİ NİGAR ƏHMƏD QIZI

690.000 balla Bakı Dövlət Universitetinin "Kompyuter elmləri" ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 3 saylı orta məktəbin məzunudur.



### SALAHLI AYGÜL HABİL QIZI

690.000 balla Bakı Dövlət Universitetinin "Kompyuter elmləri" ixtisasına qəbul olub.
Naxçıvan MR Şahbuz rayonu A.H.Quliyev adına Kükü kənd orta məktəbinin məzunudur.



### MÜRŞÜDOV MƏHƏMMƏD İDNOY OĞLU

685.000 balla Bakı Dövlət Universitetinin "Kompyuter elmləri" ixtisasına qəbul olub.
Bakı şəhəri Binəqədi rayonu 143 saylı orta məktəbin məzunudur.



### SƏFƏROV İSMAYIL AMİL OĞLU

680.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Neft-qaz qurğuları mühəndisliyi" ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 104 saylı orta məktəbin məzunudur.



### AĞABALAYEVA GÜLNAR ŞİRZAD QIZI

680.000 balla "Qafqaz" Universitetinin "Kompyuter mühəndisliyi" ixtisasına qəbul olub.
Zaqatala rayonu Humanitar təmayüllü gimnaziyanın məzunudur.



### RÜSTƏMOV CAVİD ZÖHRAB OĞLU

680.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Kimya mühəndisliyi" ixtisasına qəbul olub.
Bakı şəhəri Nərimanov rayonu 291 saylı "Araz" ekologiya liseyinin məzunudur.



### HACIYEV ELNUR ASİF OĞLU

675.000 balla "Qafqaz" Universitetinin "Kompyuter mühəndisliyi" ixtisasına qəbul olub.
Göygöl rayonu S.Vurğun adına 3 saylı şəhər orta məktəbinin məzunudur.



### HAKİMOV NİCAT ELDAR OĞLU

675.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Neft-qaz mühəndisliyi" ixtisasına qəbul olub.
Bakı şəhəri Nəsimi rayonu Texniki humanitar liseyin məzunudur.



### ƏSGƏRLİ KƏNAN EYTİBAR OĞLU

675.000 balla "Qafqaz" Universitetinin "Kompyuter mühəndisliyi" ixtisasına qəbul olub.
Bakı Özəl Türk Liseyinin Quba filialının məzunudur.



### QASIMOV ƏLİSƏFA NİYAZİ OĞLU

675.000 balla Bakı Dövlət Universitetinin "Kompyuter elmləri" ixtisasına qəbul olub.
Bakı şəhəri Yasamal rayonu Fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunudur.



## ŞÜKÜROV PƏRVİZ ÇİNGİZ OĞLU

673.000 balla "Qafqaz" Universitetinin "Kimya mühəndisliyi" ixtisasına qəbul olub. Sumqayıt şəhəri 13 saylı orta məktəbin məzunudur.



## SALMANOV ORXAN ADİL OĞLU

670.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının "Neft-qaz mühəndisliyi" ixtisasına qəbul olub. Sumqayıt şəhəri 23 saylı orta məktəbin məzunudur.



## ƏLİCANOV NƏZİR MUSTAFA OĞLU

Gəncə şəhəri Nizami adına 11 saylı şəhər orta məktəbinin məzunudur.



## ƏBİLOV İLQAR NİZAMİ OĞLU

605.000 balla Azərbaycan Tibb Universitetinin “Stomatologiya” ixtisasına qəbul olub.
Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyinin məzunudur.



## QOCAYEVA GÜNAY ŞİRZAD QIZI

605.000 balla Azərbaycan Tibb Universitetinin “Stomatologiya” ixtisasına qəbul olub.
Tovuz rayonu F.Hüseynov adına Qaraxanlı kənd orta məktəbinin məzunudur.



## MƏMMƏDOV QƏDİR ŞƏMSİ OĞLU

605.000 balla Azərbaycan Tibb Universitetinin “Pediatriya” ixtisasına qəbul olub.
Cəlilabad rayonu Heydər Əliyev adına Alar kənd 1 saylı orta məktəbin məzunudur.



## BAYRAMOV MƏMMƏD QURBAN OĞLU

605.000 balla Azərbaycan Tibb Universitetinin “Stomatologiya” ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu Kimya-biologiya təmayüllü liseyin məzunudur.



## MEHDİYEVA HUMAY ƏLİ QIZI

605.000 balla Azərbaycan Tibb Universitetinin “Pediatriya” ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 190 saylı orta məktəbin məzunudur.



### MİRZƏYEVA ŞƏBNUR VÜQAR QIZI

604.000 balla Azərbaycan Tibb Universitetinin “Müalicə işi” ixtisasına qəbul olub.
Lənkəran rayonu Aşağı Nüvədi qəsəbə orta məktəbin məzunudur.



### OSMANOV ORXAN ELDAR OĞLU

604.000 balla Azərbaycan Tibb Universitetinin “Stomatologiya” ixtisasına qəbul olub.
Xaçmaz rayonu Həsənqala kənd orta məktəbinin məzunudur.



### ORUCLU NİGAR MƏHƏMMƏDƏLİ QIZI

604.000 balla Azərbaycan Tibb Universitetinin “Müalicə işi” ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 62 saylı orta məktəbin məzunudur.



### SƏMƏDOVA AYDAN ELXAN QIZI

603.000 balla Azərbaycan Tibb Universitetinin “Müalicə işi” ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 132 saylı orta məktəbin məzunudur.



### NİFTİYEVA GÜNƏŞ ƏFRUZ QIZI

603.000 balla Azərbaycan Tibb Universitetinin “Müalicə işi” ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 282 saylı orta məktəbin məzunudur.



### ABBASLI ORXAN SABİR OĞLU

603.000 balla Azərbaycan Tibb Universitetinin “Pediatriya” ixtisasına qəbul olub.
Biləsuvar rayonu Ş.Qurbanov adına 2 saylı şəhər orta məktəbinin məzunudur.



### QULİYEV HİKMƏT ŞAHİN OĞLU

603.000 balla Azərbaycan Tibb Universitetinin “Stomatologiya” ixtisasına qəbul olub.
Tovuz rayonu M.Musayev adına Əlimərdanlı kənd orta məktəbinin məzunudur.



### KAZIMZADƏ GÜLNAR NÜSRƏT QIZI

603.000 balla Azərbaycan Tibb Universitetinin “Müalicə işi” ixtisasına qəbul olub.
Bakı şəhəri Suraxanı rayonu 275 saylı orta məktəbin məzunudur.



### YUNUSOVA AİDƏ ŞAHİN QIZI

602.000 balla Azərbaycan Tibb Universitetinin “Müalicə işi” ixtisasına qəbul olub.
Balakən rayonu Texniki Humanitar təmayüllü liseyin məzunudur.



### BEHBUDOVA DİLARƏ NİYAZİ QIZI

601.000 balla Azərbaycan Tibb Universitetinin “Pediatriya” ixtisasına qəbul olub.
Gəncə şəhəri M.Abbas Abbaszadə adına 20 saylı şəhər orta məktəbinin məzunudur.



### MƏRCANOV İZZƏT FƏXRƏDDİN OĞLU

601.000 balla Azərbaycan Tibb Universitetinin “Müalicə işi” ixtisasına qəbul olub.
Naxçıvan şəhəri Ə.Ağayev adına 8 saylı orta məktəbin məzunudur.



### MƏMMƏDYARZADƏ AYSEL MÜRŞÜD QIZI

601.000 balla Azərbaycan Tibb Universitetinin “Pediatriya” ixtisasına qəbul olub.
Qəbələ rayonu 4 saylı şəhər orta məktəbinin məzunudur.



## VƏLİXAN TÜRKAN ELDAR QIZI

601.000 balla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.
Bakı şəhəri Səbayel rayonu 162 saylı orta məktəbin məzunudur.



## CƏBİYEVA ELNARƏ BİLAL QIZI

601.000 balla Azərbaycan Tibb Universitetinin "Pediatriya" ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu 238 saylı orta məktəbin məzunudur.



## İSMAYILOV RƏHMAN ELÇİN OĞLU

600.000 balla Azərbaycan Tibb Universitetinin "Stomatologiya" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 11 saylı orta məktəbin məzunudur.



## HACIYEV KAMRAN USUB OĞLU

600.000 balla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.
Gəncə şəhəri Gəncə Azərbaycan-Türkiyə özəl liseyinin məzunudur.



## ETİBARLI NƏRMİN NƏRMAN QIZI

600.000 balla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.
Şirvan şəhəri B.Aslanov adına 16 saylı şəhər orta məktəbinin məzunudur.



## KƏRİMOVA NURANƏ ƏLƏYƏT QIZI

600.000 balla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.
Abşeron rayonu Mehdiabad qəsəbə 1 saylı orta məktəbin məzunudur.



## MƏMMƏDOVA AYŞƏN QAÇAY QIZI

601.000 balla Azərbaycan Tibb Universitetinin "Pediatriya" ixtisasına qəbul olub.
Bakı şəhəri Sabunçu rayonu 74 saylı orta məktəbin məzunudur.



## NAĞIYEV FAİQ ÜZEYİR OĞLU

600.000 balla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.
Bakı şəhəri Nizami rayonu "Dədə Qorqud" Özəl Türk Kompüter liseyinin məzunudur.



## HÜSEYNLİ FİDAN HAQVERDİ QIZI

600.000 balla Azərbaycan Tibb Universitetinin "Pediatriya" ixtisasına qəbul olub.
Sumqayıt şəhəri 23 saylı orta məktəbin məzunudur.



## ZEYNALOV ELÇİN AKİF OĞLU

600.000 balla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.
Gəncə şəhəri K.D.Uşinski adına 29 saylı şəhər orta məktəbinin məzunudur.



## ABDULLAYEV ELŞƏN İLHAM OĞLU

600.000 balla Azərbaycan Tibb Universitetinin "Pediatriya" ixtisasına qəbul olub.
Şəki rayonu 20 saylı şəhər orta məktəbinin məzunudur.



## ƏMİROV FƏRHAD LALUDDİN OĞLU

600.000 balla Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.
Ağdam rayonu 1 saylı orta məktəbin məzunudur.

# TQDK-nın ANKET SORĞUSUNA CAVABLARDAN SEÇMƏLƏR

Ənənəvi olaraq, bu il də ali məktəblərə qəbul imtahanlarında 600-dən çox bal toplayan abituriyentlərlə anket sorğusu keçirilib. Sorğuda şəxsi anket göstəricilərinə aid suallardan sonra abituriyentin qəbul imtahanına necə hazırlaşması (müstəqil, repetitorla, hazırlıq kurslarında), hazırlığın müddəti, ali məktəbə qəbulda hansı məqsədi əsas tutması, ixtisas seçiminə kimlərin və nələrin təsir etməsi, qəbul imtahanında mövcud olan şərait, onun gedişi, təşkili səviyyəsi, nəzarətçilərin imtahanı necə idarə etməsi, imtahan suallarının məzmunu, çətinlik dərəcəsi, sayı, imtahana ayrılan vaxt və s. barədə rəyi soruşulub, əlavə arzu, təklif və fikirlərini bildirmək xahiş olunub. Sorğuda bilik yarışı öncüllərinə qəbul imtahanına hazırlaşmaqla bağlı öz təcrübələrini gələcək abituriyentlərlə bölüşmək, məsləhət və tövsiyələrini bildirmək də təklif olunub.

Aşağıda anket suallarına cavablardan daha çox diqqəti çəkən nümunələr təqdim edilib.

## GƏLƏCƏK ABİTURİYENTLƏRƏ MƏSLƏHƏT VƏ TÖVSİYƏLƏR

**Səfərov İsmayıl** (680 bal, I qrup): *Orta məktəbdə bütün fənlərə eyni diqqət və məsuliyyətlə yanaşsınlar. Lakin X və XI siniflərdə seçdikləri ixtisas qrupu ilə bağlı fənlərə daha çox üstünlük versinlər.*

**Baxışova Səidə** (670 bal, I qrup): *Yalnız son iki ildə deyil, bütün məktəb illərində yaxşı oxumaq və oxuduqlarını tətbiq etməyi öyrənmək lazımdır.*

**Məmmədov Adil Şamirzə** (670 bal, I qrup): *Oxumağa məcburi bir iş kimi deyil, maraqlı bir məşğuliyyət kimi baxsınlar, o zaman öyrənmək daha asan olar.*

**Cəfərova Fidan** (645 bal, I qrup): *Hər bir fəndən nəzəri bilikləri dərindən mənimsəmək, sonra isə onlara aid test tapşırıqlarını həll etmək lazımdır.*

**Babayev Fərid** (635 bal, I qrup): *Orta məktəb dərslikləri ilə bərabər TQDK-nın nəşrlərindən də mütəmadi istifadə etsinlər; qəbula hazırlıqda "Siniflər üçün test kitabçaları"nın, metodiki vəsaitlərin və "Abituriyent"də dərc olunan model testlərin rolu əvəzsizdir.*

**Marifov Fərid** (632 bal, I qrup): *Qəbula yalnız repetitorla deyil, həm də müstəqil surətdə hazırlaşsınlar. Ən yaxşısı odur ki, məktəb proqramını aşağı siniflərdən başlayaraq mənimsəsinlər. Repetitorla hazırlıq yalnız bu halda yaxşı səmərə verə bilər.*

**Nəsirov Nicat** (630 bal, I qrup): *Qarşıya aydın məqsəd qoymaq, planlı şəkildə çalışmaq, oxuduqlarını daim təkrarlamaq, ciddi gündəlik rejim, vaxtlı-vaxtında qidalanmaq, özünə inam, bir sözlə hər şeydə, hər işdə sistemlilik. Bu yolla nəinki orta nəticə, hətta yüksək nəticə də əldə etmək mümkündür. Bu da unudulmamalıdır: ali məktəbə yaxşı hazırlaşmaq üçün şagirdin möhkəm bilik bazası olmalıdır. Bu isə ən azı 5-6-cı siniflərdən başlayaraq formalaşdırılmalıdır.*

**Həbiyev Bəhruz** (626 bal, I qrup): *Ən başlıca vəzifə orta məktəb proqramını dərindən mənimsəməkdir. Repetitorlara isə öyrəndiklərini sistemləşdirmək məqsədilə müraciət edilməlidir. Həm də gənclər düşünməməlidirlər ki, ali məktəbə qəbul olduqdan sonra oxumaq bitir. Əslində, bilik qazanmağın magistral yolu ancaq bundan sonra başlayır. Ümumiyyətlə, insan daim bilik əldə etməyə çalışmalıdır.*

**Abbasov Toğrul** (624 bal, I qrup): *Məqsədyönlü şəkildə çəkilən zəhmət qarşısında hər şey aciz qalır və sən istədiyin nəticəyə nail olursan. Bunun üçün hər bir gəncdə istək, aydın məqsəd, güclü iradə, inam və qətiyyət olmalıdır.*

**Mehdiyev Bəhruz** (622 bal, I qrup): *Yüksək nəticə qazanmağın yeganə yolu aşağı siniflərdən yaxşı oxumaqdır. X və XI siniflərdə isə qazanılmış bilikləri təkrarlamaq və möhkəmləndirmək lazımdır.*

**İslamzadə Nailə** (622 bal, I qrup): *Fənlər üzrə mövzuları öyrənməklə yanaşı mənimsənilən bilikləri həmin mövzulara aid test sualları ilə yoxlayıb möhkəmləndirsinlər. Amma normal istirahəti də unutmasınlar.*

*Qəbula hazırlıq prosesi ilə bağlı suallara cavab tapmaq üçün "Abituriyent" jurnalını mütəmadi izləsinlər.*

**Cəfərov Vüqar** (670 bal, II qrup): *Çox oxumaq deyil, səmərəli oxumaq, hər şeyi oxumaq deyil, ən əsaslı və zəruri olanları oxumaq vacibdir. Bir də psixoloji hazırlığa xüsusi fikir vermək lazımdır.*

**Məmmədov Cahangir** (660 bal, II qrup): *Yalnız test tapşırıqlarını həll etmək xatirinə yox, ən əsası fənni dərindən öyrənmək xatirinə çalışsınlar. Çünki dərindən öyrənilən biliklə istənilən suala cavab tapmaq olar.*

**Güləliyev Tofiq** (650 bal, II qrup): *Əzbərçiliyə yol verməsinlər.*

**Xeyirxəbərli Yasəmən** (645 bal, II qrup): *Dərslərə məcburi surətdə yox, sevərək yanaşsınlar, dərs oxumaqdan həzz almağı bacarsınlar.*

**Hüseynzadə Bəhruz** (640 bal, II qrup): *Unutmasınlar ki, uğur bəxtin deyil, zəhmətin bəhrəsidir.*

**Rzayeva İradə** (632 bal, II qrup): *Ali məktəbə qəbul böyük həyata qədəm qoymaq üçün təməldir. Ona görə qəbul xatirinə yox, məhz özünü böyük həyata hazırlamaq üçün oxumaq lazımdır.*

**İsmayılov Nəriman** (619 bal, II qrup): *Təkcə dərs oxumaqla iş bitmir, testlər üzərində də işləmək vacibdir, bu, biliyi möhkəmləndirməyə çox kömək edir. Eyni zamanda gərək mütəmadi olaraq sınaq imtahanlarında iştirak edib öz hazırlıq səviyyəni yoxlayasan.*

**Pənahov Fərhad** (616 bal, II qrup): *Oxumaqda kəmiyyət yox, keyfiyyət vacibdir.*

**Hüseynli Kənan** (610 bal, II qrup): *Daim tənbəlliyə, səhlənkarlığa, məsuliyyətsizliyə, laqeydliyə qarşı özünüzlə mübarizə aparın. Sonda qalib gələn siz olacaqsınız. Özünüzə, uğur qazanacağınıza inanın. İnanmaq bacarmağın yarısıdır. Böyük şairimiz B.Vahabzadə gözəl deyib:*

*"Yaradıbdır inam məni*
*Mən inamın övladıyam."*

**Əliyeva Aygün** (610 bal, II qrup): *Bütün müvəffəqiyyətlərin açarı hər kəsin öz əlindədir.*

**Ziyadxanlı İsmixan** (610 bal, II qrup): *İmtahan həyəcanına qalib gəlmək üçün tez-tez sınaq imtahanında iştirak etmək lazımdır.*

**Qəhrəmanova Lalə** (605 bal, II qrup): *Kim düşünürsə ki, orta məktəbdə yaxşı oxumadan və yalnız X və XI siniflərdə repetitor yanına getməklə əla nəticə əldə etmək olar, çox ciddi səhvə yol verir.*

**Kazımlı Ülvi** (605 bal, II qrup): *Kortəbii oxumaqla yox, sistemli oxumaqla yüksək nəticə əldə etmək olar.*

**Musayeva Fəridə** (700 bal, III qrup): *Abituriyent sistemli və ardıcıl çalışmalı, bir mövzunu tam öyrənmədən başqasına keçməməli, əzbərçilikdən qaçmalı, müntəzəm olaraq öz biliyini testlərlə yoxlamalı, TQDK-nın keçirdiyi bütün sınaq imtahanlarında iştirak edərək öz zəif cəhətlərini müəyyən etməlidir. Öz gücünə, yüksək nəticə göstərəcəyinə inanmaq əsas şərtlərdəndir.*

**Mürsəlli Səbinə** (672 bal, III qrup): *Hər bir abituriyent məntiqi təfəkkürlə bağlı suallara xüsusi diqqət yetirməli, dərs materiallarını öyrənərkən məntiqi ümumiləşdirmələr, müqayisələr aparmaq bacarığına yiyələnməlidir.*

**Miri Nərmin** (670 bal, III qrup): *Mən qəbula tam müstəqil, repetitorsuz hazırlaşmışam. Bu yolda ən böyük köməkçim məktəb vaxtında qazandığım biliklər olub. Ona görə də gənclərimizə məktəb illərində lazım olan biliyi əldə etməkdən yayınmamağı tövsiyə edirəm.*

**Hüseynova Sevana** (665 bal, III qrup): *Vaxtınızdan və imkanlarınızdan maksimum yararlanın. Məqsədinizə doğru inamla addımlayın. Sevimli məşğuliyyətlərdən bir müddət əl çəkib bütün diqqətinizi dərslərə yönəldin. Yeməyinizə və yuxunuza da fikir verin. TQDK-nın nəşr etdiyi müxtəlif vəsaitlərdən istifadə edin. "Abituriyent" jurnalını mütəmadi oxuyun. Sonda görəcəksiniz ki, uğurlu nəticə çəkilmiş bütün əziyyətlərə dəyir.*

**Məstiyeva Əfsanə** (659 bal, III qrup): *Aydındır ki, qəbul imtahanındakı test suallarının məzmunu proqram materiallarından kənara çıxmır, ona görə də şagirdlər, ilk növbədə gərək məktəb dərsliklərini mükəmməl oxusunlar. TQDK-nın gənclər üçün nəşr etdiyi test kitabçalarından səmərəli istifadə etsinlər. Mən belə etdim və uğur qazandım. Sizə də uğurlar.*

**Bayramov Elşən** (650 bal, III qrup): *İmtahana həm zehni, həm psixoloji, həm də fiziki cəhətdən hazırlaşmaq lazımdır.*

**Abdullayeva Rəşidə** (650 bal, III qrup): *Abituriyent ixtisas seçimi zamanı gərək heç kimin kor-koranə təsirinə düşməsin. Elə ixtisas seçsin ki, gələcəkdə həmin ixtisas həm özü üçün, həm də cəmiyyət üçün faydalı olsun.*

**Abaslı İlahə** (645 bal, III qrup): *TQDK-nın "Bilik qiymətləndirilir" devizini heç vaxt unutmasınlar.*

**Məmmədzadə Fuad** (635 bal, III qrup): *Oxumağa əziyyət kimi yox, maraqlı və faydalı bir iş kimi baxsınlar.*

**Şərifova Aysel** (618 bal, III qrup): *Aşağı siniflərdən öz üzərilərində işləsinlər; özlərinə və öz qabiliyyətlərinə inansınlar: inam bütün uğurların təməlidir. Proqram materiallarını oxuyarkən mövzuları dərk və təhlil edərək öyrənsinlər, öyrəndiklərini vaxtında təkrarlamaqla və testlər həll etməklə möhkəmləndirsinlər. Hazırlıq zamanı digər yoldaşları ilə rəqabət mühiti yaratsınlar; çətin, mürəkkəb mövzular üzərində daha çox çalışsınlar və nəhayət, imtahana yüksək əhval-ruhiyyə ilə getsinlər.*

**İsmayılzadə Turan** (615 bal, III qrup): *Məncə, hər bir gənc ilk öncə heç bir təzyiq olmadan öz istəyinə, arzusuna uyğun ixtisas seçməlidir və unutmamalıdır ki, seçdiyin ixtisası sevməsən həvəslə oxumaq olmaz. Həvəssiz oxumaqla isə nə qəbulda yüksək nəticə əldə etmək olar, nə də gələcəkdə peşəkar mütəxəssis olmaq olar.*

**Məmmədov Sənan** (615 bal, III qrup): *Bir mütəfəkkirin belə bir müdrik kəlamı var: "Damcının daşı dəlməsi onun gücündə deyil, damcıların davamlı olmasındadır". Oxumaq, öyrənmək də beləcə davamlı olarsa, istənilən nəticəni əldə etmək olar.*

**Qurbanova Aynur** (657 bal, IV qrup): *Əziz abituriyentlər, heç vaxt geri qaytara bilməyəcəyiniz vaxtınızın qədrini bilin, ondan səmərəli istifadə edin. Vaxt ən qiymətli sərvətdir.*

**Əhmədli Günel** (641 bal, IV qrup): *Arzuladığınız, sevdiyiniz ixtisası seçin ki, ona yiyələnməyin əziyyətinə də dözə biləsiniz. Çünki seçdiyiniz ixtisasa aid fənləri sevə-sevə, zövq alaraq öyrənməsəniz, bezərsiniz və nəticədə istənilən uğuru qazana bilməzsiniz.*

**Rzazadə Niyazi** (637 bal, IV qrup): *Tədris proqramlarına aşağı siniflərdən başlayaraq dərindən yiyələnsinlər. Bunun ali məktəbə qəbula hazırlıqda rolu əvəzsizdir. Əks halda arzu olunan nəticə əldə oluna bilməz. Mən bunları öz şəxsi təcrübəmə əsaslanaraq deyirəm.*

**Qafarlı Araz** (620 bal, IV qrup): *Mövzuları öyrənərkən onları əzbərləməyə yox, başa düşməyə çalışsınlar.*

**Rəhmanlı Gülnarə** (619 bal, IV qrup): *Qarşılarına aydın və konkret məqsəd qoysunlar. Məqsədə çatmaq üçün bacardıqları qədər çalışsınlar. Müstəqil hazırlaşmağa daha çox meyil göstərsinlər. Elmi biliklərə yiyələnməyə əziyyətli iş kimi deyil, maraqlı iş kimi yanaşsınlar.*

**Təhməzli Aydan** (616 bal, IV qrup): *Orta məktəbdə yaxşı oxusalar, qəbula hazırlaşanda çətinlik çəkməzlər.*

**Zeynallı Ləman** (616 bal, IV qrup): *Məncə, yaxşı nəticə əldə etmək üçün ən əsas şərt məktəbdə yaxşı oxumaqdır. Məktəbdə yaxşı oxumusansa, qəbula hazırlaşmaqda çətinliyin olmayacaq.*

**İbayev Astan** (615 bal, IV qrup): *Gündəlik məktəb dərslərini öyrənmədən repetitorla hazırlaşmaqla yüksək nəticəyə nail olmaq olmaz.*

**Şeydayeva Zeylanə** (611 bal, IV qrup): *Abituriyentlər öz vaxtlarını səmərəli bölüşdürməli; oxumağa da, istirahətə də, öz sağlamlıqlarının qeydinə qalmağa da vaxt ayırmalıdırlar. Yalnız repetitorla hazırlaşmaqla və məktəb dərsləri ilə kifayətlənməyib öz üzərlərində müstəqil olaraq çalışmalıdırlar. Bir də onlar imtahan şəraitinin ədalətli, obyektiv olacağına inanmalı, imtahan zamanı bu və ya digər səbəbdən özlərində yarana bilən həyəcan və stresslərə qalib gəlməyi bacarmalıdırlar.*

**Rüstəmli Xalidə** (610 bal, IV qrup): *Sınaq imtahanlarında topladıqları ballara güvənib az oxumasınlar. Mən bu səhvi etdim, ona görə 700 yox, 610 bal topladım.*

# RƏYLƏR

**Əhmədli Nigar** (690 bal, I qrup): *Test üsulu şagirdlərin öz biliklərini nümayiş etdirməsi üçün çox münasib sistemdir.*

**Abbaszadə Fərid** (660 bal, I qrup): *Orta təhsilin keyfiyyətini yüksəltməklə repetitorlara olan ehtiyacı aradan qaldırmaq lazımdır.*

**Şəfisoy Səməd** (660 bal, I qrup): *Uşaqları əzbərçilikdən qurtarmaq üçün son zamanlar məntiq suallarına çox yer verilir ki, bu da çox müsbət, təqdirəlayiq haldır.*

**Mahmudov Nihad** (635 bal, I qrup): *TQDK-nın qəbul imtahanlarına hazırlıqla bağlı apardığı iş biz abituriyentlərə çox böyük köməkdir.*

**Həbiyev Bəhruz** (626 bal, I qrup): *Savadlı, ixtisaslı mütəxəssislər hər bir ölkənin canlı resurslarıdır. Biz gənclər bunu bilməli və özümüzü buna hazırlamalıyıq.*

**Hüseynli Dilarə** (619 bal, I qrup): *Ali məktəbə yüksək balla daxil olmaq böyük hünərdir. Amma bundan da böyük hünər ali məktəbdə həqiqi əla qiymətlərlə oxumaqdır.*

**Abbasov Xəzər** (616 bal, I qrup): *Azərbaycanımız günbəgün inkişaf edir. Bu inkişafın əsas mənbələrindən biri ölkəmizin yüksək təhsilli kadrlarıdır. Arzu edirəm ki, gələcəkdə bu inkişaf yetişməkdə olan biz gənclərin hesabına daha da sürətlənsin və dövlətimiz dünyanın ən çox inkişaf etmiş ölkələri ilə bir sırada dursun.*

**Cəfərov Fərid** (685 bal, II qrup): *Biz abituriyentlər üçün yaradılan bu obyektiv, şəffaf şəraitə görə TQDK-nın rəhbərliyinə və kollektivinə öz minnətdarlığımızı bildiririk. Məhz belə bir şərait sayəsində biz öz biliyimizi dolğun nümayiş etdirə bildik.*

**Kazımlı Kamran** (645 bal, II qrup): *TQDK-nın abituriyentlər üçün yaratdığı şərait, imtahanların obyektiv keçirilməsi, bilik və bacarığın əsas götürülməsi, ixtisas seçimi ilə bağlı yüksək səviyyədə aparılan maarifləndirmə işləri təqdirəlayiqdir.*

**Ağazadə Surə** (632 bal, II qrup): *İstərdim ki, ali məktəbdə orta məktəbdə rastlaşdığımız neqativ hallar olmasın.*

**Baxşəliyeva Nərgiz** (612 bal, II qrup): *Məncə, imtahana ayrılan vaxtı heç olmasa 40-60 dəqiqə artırmaq lazımdır. Şəxsən mən imtahanda daha yüksək bal toplaya bilərdim, mənim üçün imtahanda naməlum suallar yox idi, ancaq onlara cavab verməyə sadəcə vaxt azlıq etdi.*

**Hüseynov Əliyar** (611 bal, II qrup): *"Abituriyent" jurnalının nəşrlərində zəhməti olan bütün insanlara öz dərin minnətdarlığımı bildirirəm. Abituriyentlərin tələbə adı qazanmalarında bu jurnalın əvəzsiz xidməti vardır.*

**Baxşıyeva Sevinc** (610 bal, II qrup): *TQDK-ya həmişə olduğu kimi dəqiq, qərəzsiz, obyektiv və ədalətli olmağı arzu edirəm.*

**Nağıyev Babək** (675 bal, III qrup): *İmtahan suallarının daha çox məntiqi düşüncəyə yönəldilməsi əzbərçiliyə zərbə vurmaqla daha sağlam düşüncəli, həqiqi savada malik gənclərin yetişdirilməsi üçün vacibdir.*

**Nurəliyeva Nərmin** (660 bal, III qrup): *Məşhur filmdə deyildiyi kimi, sükanı belə saxla, TQDK!*

**Arifli Səma** (655 bal, III qrup): *Hərbidə belə bir məsəl var: "Təlimdə tər tökən döyüşdə əziyyət çəkməz". Bu məsəl abituriyentlərə də aiddir. Orta məktəbdə səylə çalışan, dərslərini mükəmməl öyrənən şagirdlər qəbul imtahanlarında əziyyət çəkmirlər.*

**Əlibəyli Aysel** (650 bal, III qrup): *Qəbul imtahanında gənclərimiz üçün yaradılan imkandan, eləcə də onların bilik səviyyəsinin artırılması yolunda görülən tədbirlərdən bir Azərbaycan gənci kimi məmnun qaldım. Bunun üçün hörmətli Məleykə Abbaszadəyə və TQDK-nın əməkdaşlarına minnətdarlığımı bildirirəm.*

**Nərmin Quliyeva** (635 bal, III qrup): *Mən Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyində oxuduğum üçün özümü xoşbəxt sayıram, çünki burada ancaq fənn müəllimlərimizin səyi ilə bu səviyyəyə çatmışıq. İstərdim ki, digər məktəblərdə də uşaqlar sadəcə fənn müəllimlərindən öyrəndiklərinin hesabına biliklərə yiyələnsinlər, əlavə repetitorlara ehtiyac qalmasın.*

**Məmmədova Gülnar** (627 bal, III qrup): *Qəbul imtahanlarından sonra ixtisas seçimi gəlir və bu seçim zamanı hər kəs tam sərbəst olur. Heç kim, heç nə səni istəmədiyin ixtisası seçməyə məcbur edə bilməz. Ancaq ən yaxşısı odur ki, istəyini - seçimini lap əvvəldən – qəbula hazırlığa başladığın vaxtdan müəyyən edəsən. Bu, hazırlığın keyfiyyətinə də çox ciddi təsir göstərir.*

**Məlikli Tamerlan** (625 bal, III qrup): *TQDK-nın keçirdiyi qəbul imtahanları abituriyentlərin bilik səviyyəsini tam üzə çıxarmağa imkan verir. İmtahanın nəticələri abituriyentlərin 11 illik təhsilinin tam göstəricisidir.*

**Qasımzadə Sevinc** (614 bal, III qrup): *Orta məktəbdə təhsilin keyfiyyətini yüksəltmək çox vacibdir. Belə olarsa, repetitorla məşğul olmağa ehtiyac olmaz. Axı, bu, valideynlər üçün maddi cəhətdən çətinlik törədir.*

**Güləliyeva Sevinc** (613 bal, III qrup): *Qəbul imtahanı çox ədalətli keçdi. Yüksək nəticə əldə etməyimizdə TQDK-nın xüsusi rolu var: sınaq imtahanları, elmi-metodiki materiallar, elmi-statistik təhlillər şəxsən mənə çox kömək oldu. Biz abituriyentlər üçün yaradılan belə şəraitə görə TQDK-ya, onun rəhbərliyinə öz minnətdarlığımızı bildiririk.*

**Hüseynov Elvar** (611 bal, III qrup): *Orta məktəbdə yaxşı oxumayan, lazımi qədər bilik bazası olmayan şagirdə repetitor kömək edə bilməz. Bir də ki, şagird gərək əzbərçilikdən uzaq olsun, hər bir mövzunu yalnız dərk etməklə öyrənsin.*

**Tahirova Günel** (610 bal, III qrup): *Bu il Binəqədi rayonu, 143 saylı 11a sinfinin üç məzunu qəbulda 600 baldan yuxarı nəticə göstərmişik. Mən – Tahirova Günel – 610 bal, Kərimli Bəhmən – 640 bal, Mirzəyev Adil – 665 bal toplamışıq. Bu uğurlarımıza görə bizə dərs deyən savadlı müəllimlərimizə minnətdarıq.*

**Sideifzadə Fidan** (610 bal, III qrup): *Həyatda çox gənc yaşlarından yüksək bir arzu və amalla yaşamaq gözəl şeydir. Amma bundan da gözəli həmin arzunun reallaşması və həmin anlarda yaşanan əvəzolunmaz, şirin duyğulardır. Əziz şagirdlər, istərdim ki, gələcəkdə bu gözəlliyi siz də duyasınız, bu xoşbəxtliyi siz də yaşayasınız. Bunun üçün isə yalnız yorulmaq bilmədən, həvəslə çalışmaq lazımdır.*

**Yusifli Əlizamin** (690 bal IV qrup): *TQDK-nın keçirdiyi qəbul imtahanlarının səviyyəsindən olduqca razıyam: abituriyentlərin bilik səviyyəsi çox düzgün qiymətləndirilir.*

**Hüseynzadə Nərgiz** (656 bal, IV qrup): *TQDK-ya bizə yaratdığı şəraitə görə təşəkkürümü bildirirəm. Həmişə belə obyektiv olun. Bir daha təşəkkürlər!!!*

**Seyidzadə Günay** (641 bal, IV qrup): *Dövlətimizin təhsilə qayğısı, qəbul imtahanlarında yaradılan ədalət və düzgünlük gənclərdə öz biliyini artırmağa dərin həvəs və inam oyadır.*

# TƏKLİFLƏR

**Əsgərzadə Xalid** (660 bal, I qrup): *Abituriyentlərin biliyini yoxlamaq üçün imtahanlarda açıq suallardan da istifadə etmək lazımdır.*

**Mehrəliyeva Nərmin** (641 bal, I qrup): *Məntiqi suallara geniş yer verilsin. Həlli çox vaxt tələb edən çətin sualların qiymətləndirilməsində fərqli meyarlar tətbiq edilsin.*

**Mahmudov Nihad** (635 bal, I qrup): *Abituriyentlərin, eləcə də nəzarətçilərin bəzən imtahan qaydalarından kənara çıxmalarının qarşısını almaq üçün imtahan otaqlarında kameralar quraşdırılsın.*

**Seyidalılı Fatma** (630 bal, I qrup): *Yaxşı olar ki, ali məktəb ixtisasları, xüsusilə də yeni ixtisaslar barədə "Abituriyent" jurnalında ətraflı məlumatlar verilsin. Bu, abituriyentlərin uğurlu ixtisas seçiminə çox kömək olar.*

**İslamzadə Nailə** (620 bal, I qrup): *Regionlarda sınaq imtahanlarının sayı artırılsın.*

**Tağıyeva Səbinə** (619 bal, I qrup): *Abituriyentlərin biliklərinin yoxlanması üçün TQDK tərəfindən keçirilən sınaq imtahanlarının sayını artırmaq lazımdır.*

**Rüstəmli Azər** (675 bal, II qrup): *Qəbul imtahanları gələcəkdə kompyuter proqramları tətbiq edilməklə aparılsın.*

**Rəcəbov Rəcəb** (670 bal, II qrup): *İmtahan sualları çətinlik dərəcəsinə görə diferensiallaşdırılsın və bunlar fərqli meyarlarla qiymətləndirilsin.*

**Cəfərov Vüqar** (670 bal, II qrup): *Dərin düşüncə tələb edən məntiqi suallara üstünlük verilsin.*

**Bəşirzadə Nərmin** (665 bal, II qrup): *Prezident təqaüdü saya görə deyil, bala görə müəyyən edilsin, yəni 650 baldan yuxarı nəticə göstərən hər kəsə verilsin.*

**Məmmədov Cahangir** (660 bal, II qrup): *Orta məktəblərdə tədrisin səviyyəsi elə bir həddə çatdırılsın ki, repetitorlara ehtiyac olmasın. Məktəbdə əlavə pulsuz dərslər təşkil olunsun və bunlar ali məktəbə qəbul olmaq üçün kifayət etsin. Çünki hamının repetitor xidmətindən istifadə etməyə maddi imkanı yoxdur.*

**Güləliyev Tofiq** (650 bal, II qrup): *Hər fənn üzrə suallar çətinlik dərəcəsinə görə 3 hissəyə (sadə, orta, çətin) bölünsün və bunlar fərqli balla qiymətləndirilsin.*

**Sərkarlı Ülvi** (640 bal, II qrup): *Buraxılış və qəbul imtahanlarında daha yüksək nəticəni təmin etmək məqsədi ilə şagirdlər bir sinifdən digərinə keçdikdə test imtahanı versinlər. Bu, onların məsuliyyətini daha da artırar və gələcək uğurlarına zəmin yaradar.*

**Əliyev Mirhüseyn** (631 bal, II qrup): *Məntiqi sualların sayı artırılmalıdır ki, əzbərçiliyin qarşısı alınsın.*

**Əhmədli Nicat** (630 bal, II qrup): *İmtahan zamanı abituriyentlər otaqda tək-tək oturdulsun.*

**Cabbarlı Turqut** (625 bal, II qrup): *Məntiqə söykənən sualların sayı artırılsın, açıq testlərin tətbiqinə*

*keçilsin.*

**Quliyeva Nurlanə** (610 bal, II qrup): *Köçürmə hallarının qarşısını almaq üçün variantların sayını bir qədər də artırmaq lazımdır.*

**Məmmədxanlı Rüfət** (690 bal, III qrup): *Yaxşı olar ki, abituriyentlər imtahan otaqlarında tək-tək otursunlar. Bununla köçürmə və bir-birinə mane olma hallarının qarşısı alınar, ən əsası isə onlar sualları daha diqqətlə cavablandıra bilərlər.*

**Məmmədova Sürəyya** (670 bal, III qrup): *"Abituriyent" jurnalının bütün nömrələri və buraxılışları vaxtlı-vaxtında bölgələrə də çatdırılsın. Təhsil aldığımız müddət ərzində yüksək keyfiyyətli yataqxanalarla təmin olunaq.*

**Mürşüdzadə Ruslan** (660 bal, III qrup): *Məntiqi təfəkkürlə bağlı suallara üstünlük verilsin və bu sahəni inkişaf etdirmək üçün məktəblərdə məntiqi təfəkkür dərsləri keçilsin.*

**Ağalı Ayxan** (647 bal, III qrup): *İstərdim ki, imtahan binasına buraxılış zamanı abituriyentləri yoxlayan polislər və ya digər təşkilatların nümayəndələri abituriyentlərə qarşı maksimum nəzakətli olsunlar. Çünki bu məqamda onsuz da həyəcanlı olan abituriyentləri daha da həyəcanlandırmaq olmaz.*

**Hacıyeva Bəsirə** (645 bal, III qrup): *Məntiqi təfəkkürü inkişaf etdirən, zehni qabiliyyəti gücləndirən testlərə üstünlük verilsin.*

**İsmayılzadə Zamiq** (645 bal, III qrup): *Sınaq imtahanına ayrılan yerlərin sayı artırılsın ki, abituriyentlərin sınaqlarda iştirak etmək imkanları daha geniş olsun.*

**Məmmədova Xəyalə** (625 bal, III qrup): *Məktəblər arasında tez-tez bilik yarışları keçirilsin. Bu , həm uşaqlarda həyəcanı götürməyə kömək edər, həm onların oxumağa həvəslərini artırar, həm də uşaqlar arasında rəqabət mühiti yaradar. Məktəblərimizdə müəllim-valideyn birliyi də möhkəm olmalıdır.*

**Tahirova Günel** (610 bal, III qrup): *Respublika olimpiadalarında ayrı-ayrı fənlər üzrə yüksək yer tutan şagirdlərin nailiyyətləri qəbulda nəzərə alınsın, bu müvəffəqiyyətə görə onlara əlavə bal verilsin.*

**Sideifzadə Fidan** (610 bal, III qrup): *Yaxşı olar ki, abituriyentlərin daha səmərəli çalışması və biliyini mütəmadi olaraq yoxlaması üçün gələcəkdə sınaq imtahanları yanvar ayından keçirilsin və onların sayı artırılsın. Məncə, bu, abituriyentlərin çoxunun arzusudur.*

**Abdullayeva Könül** (635 bal, IV qrup): *Gələcək imtahanlarda məntiqi suallara daha çox yer verilsin. Belə suallar abituriyentin məntiqi düşünmə qabiliyyətini üzə çıxarar və nəticədə əsl bilikli şagirdləri əzbərçilərdən fərqləndirməyə imkan verər.*

**Allahverdiyeva Qərənfil** (630 bal, IV qrup): *İstərdim ki, məktəblərimizdə təhsilin səviyyəsi o qədər yüksək olsun ki, ali məktəbə qəbul olmaq arzusunda olan şagirdlərin əlavə olaraq hazırlıq kurslarına və ya repetitor yanına getməsinə ehtiyac qalmasın.*

**Allahverdiyev Salman** (625 bal, IV qrup): *Dövlət hesabına xaricdə təhsil almağın qaydaları asanlaşdırılsın.*

**Baba-zadə Xanım** (622 bal, IV qrup): *Ali məktəbdə tələbələrin bütün potensialının açılmasından ötrü lazımı imkan və şərait yaradılsın ki, onlar öz sahələrinin yüksək səviyyəli mütəxəssisləri kimi yetişsinlər. Məhz bunun nəticəsində Azərbaycan ali məktəblərinin diplomları bütün dünyada hörmətlə qarşılanar.*

**Əzimzadə Yeganə** (613 bal, IV qrup): *Ödənişli təhsil planını azaltmaq, dövlət hesablı plan yerlərini artırmaq lazımdır.*

***Materialı hazırladı: Rabil Novruzov***



# MƏKTUBLARDAN SƏTİRLƏR

Ali məktəblərə tələbə qəbulu müsabiqəsi xeyli vaxtdır ki, başa çatıb. Ancaq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına hələ də ictimaiyyətin müxtəlif təbəqələrindən imtahanların gedişi və nəticələri haqqında məktub, teleqram və müraciətlər daxil olur. Jurnalımızın bu sayında ictimai rəyin əks-sədası olan belə materiallardan bir neçəsini dərc edirik.

## TQDK-nın sədri Məleykə Abbaszadəyə




Hörmətli Məleykə xanım!

Bu məktubu yazaraq Sizə və bütün əməkdaşlarınıza dərin təşəkkürümü bildirmək istəyirəm. Keçən il böyük qızım Əsədova Elvira 631 bal toplayaraq ADU-nun ingilis dili və ədəbiyyatı ixtisasına, bu il də kiçik qızım Əsədova Çinarə 641 balla BDU-nin beynəlxalq münasibətlər ixtisasına daxil oldu.

Bu, mənim və ailəmizin böyük sevincinə səbəb oldu. Özümün təhsilə və elmə böyük həvəsim olsa da, ali təhsil almaq imkanım olmayıb. Daim arzu etmişəm ki, övladlarım ali təhsilli mütəxəssis olsunlar. Onların əzmkarlığı və çalışqanlığı sayəsində imtahan nəticələri çox ürəkaçan oldu. Ən əsası biz valideynlərin onlar üzərində olan əməyi nəticəsiz qalmadı.

İndi qızlarım arzu etdikləri ali məktəblərdə oxuyurlar. Onların bu uğurunda məktəb, müəllimlər və eyni zamanda TQDK-nın da böyük payı var. Nəşr olunan vəsaitlər, jurnallar imtahana hazırlıq prosesində qızlarıma çox kömək olub, sınaq imtahanları yol göstərib. TQDK tərəfindən qəbula hazırlıq prosesinin və imtahanların yüksək səviyyədə təşkili məni bir valideyn kimi çox razı salıb. Fikrimcə, TQDK üzərinə düşən ağır və məsuliyyətli işin öhdəsindən lazımınca gəlir. Yaxşı ki, bu gün Azərbaycanda qəbul imtahanlarını təşkil edən TQDK kimi mötəbər bir təşkilat var.

**Sizə və bütün kollektivinizə gələcəkdə də müvəffəqiyyətlər arzu edirəm.**

***Hörmətlə: Əsədova Qönçə***

## TQDK-nın sədri Məleykə Abbaszadəyə

Hörmətli Məleykə xanım!



Sizə bu məktubu yazmaqda məqsədim rəhbərlik etdiyiniz TQDK-nın fəaliyyətindən böyük məmnunluğumu ifadə etməkdir. Son illər mənim 3 övladım qəbul imtahanlarında iştirak edib. Qızım 2006-cı ildə NDU-ya, böyük oğlum keçən il, kiçik oğlum isə bu il yüksək nəticə göstərərək Neft Akademiyasına qəbul olublar. Onların imtahan göstəriciləri uzunmüddətli gərgin çalışmaların nəticəsidir.

Bir neçə ildir ki, mən də övladlarımla bərabər respublikamızda keçirilən tələbə qəbulu prosesini izləyirəm. Bu illər ərzində "Abituriyent" jurnalının bütün saylarını səhifə-səhifə oxuyub uşaqlarla müzakirə etmişik. Sizin və Komissiyanın əməkdaşlarının KİV-də hər çıxışına diqqətlə qulaq asmışıq. Bizi maraqlandıran bütün suallara rahat şəkildə, hərtərəfli cavab ala bilməyin mümkünlüyü məni yaxşı mənada təəccübləndirdi. Siz əhalini məlumatlandırmaq üçün ilk növbədə "Abituriyent" jurnalı, TQDK-nın internet səhifəsi və televiziya çıxışlarınız vasitəsilə bütün imkanları səfərbər edirsiniz. Bütün bunlar TQDK-ya olan rəğbətimi daha da artırıb.

Hesab edirəm ki, ölkəmizdə tələbə qəbulu prosesi çox gözəl təşkil olunub. Bu sahədə son illər atılan yeni addımlar, qəbul qaydalarına edilən dəyişikliklər abituriyent və valideynlərin rahatlığını təmin edib. Sənəd qəbulunun, ixtisas seçiminin elektron formada gerçəkləşdirilməsi, hətta sınaq imtahanları üçün kart əldə etməyin və sınaq imtahanlarına yazılışın internet vasitəsilə aparılmasının

mümkünlüyü çox yaxşı haldır. Abituriyentlərə yol göstərən çoxsaylı vəsaitlərin nəşr olunması, xüsusilə ixtisas seçimi zamanı nəzərə alınmaq üçün statistik göstəricilərin dərc edilib abituriyentlərin ixtiyarına verilməsi təqdirəlayiqdir. Abituriyentlərin imtahana hazırlaşmaları, biliklərini nümayiş etdirmələri, istək və bilik səviyyələrinə uyğun ixtisas seçmələri üçün lazım olan bütün şərait yaradılıb.
Abituriyentlər və valideynlər üçün bu cür şərait yaratdığınız üçün Sizə bir daha təşəkkürümü bildirirəm. Əminəm ki, TQDK-nın gələcək fəaliyyəti bu qayda ilə davam edəcək və respublikanın ali məktəblərinin tələbə kontingeti ildən-ilə daha savadlı, daha bacarıqlı gənclərdən təşkil olunacaq. Mən çox istərdim ki, digər dövlət orqanları da öz fəaliyyətlərində TQDK-dan ibrət götürsünlər.

*Hörmətlə, Şəfiyev Abuzər*

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına məktub

TQDK-nın sədri Məleykə xanım Abbaszadəyə təhsilin inkişafında apardığı gözəl işlərə və əldə etdiyi naliyyətlərə görə ailəmiz adından sonsuz təşəkkürümüzü bildiririk.
Xahiş edirəm məktubun cavabını mənim ünvanıma göndərəsiniz.

*İmza: Dadaşov Rüstəm Qəhrəman oğlu*
Bakı şəhəri Səbayıl r. Salyan yolu küçəsi, ev 23, m. 20

***Qeyd:*** *Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına ünvanlanmış bu məktub baxılmaq və müəllifinə cavab vermək üçün TQDK-ya göndərilmişdir. Biz məktubu dərc etməklə bərabər onun müəllifi Dadaşov Rüstəm Qəhrəman oğluna təşəkkürümüzü bildiririk.*

## TQDK-nın sədri Məleykə Abbaszadəyə

Hörmətli Məleykə xanım, böyüyüb başa çatdığım cənub bölgəsində qızların təhsillə bağlı problemləri Sizə məlumdur. Mən də belə zorakılığa məruz qalan qızlardan biri ola bilərdim. Amma ailəmizin bütün çətinliklərinə (maddi və mənəvi) dözdüm. Dövlətimizin bizim bölgənin qızlarına göstərdiyi qayğıya güvənərək inadla, qətiyyətlə qəbula hazırlaşdım və istəyimə çatdım, 659 balla Bakı Dövlət Universitetinin “Hüquqşünaslıq” ixtisasına qəbul oldum. Məzunu olduğum Valeh Müslümov adına 2 saylı Lerik şəhər orta məktəbindən gələcəkdə də qəbul imtahanlarında yüksək nəticə göstərəcək qızların olacağına inanıram. Mən mükəmməl təhsil alaraq gələcəkdə bir hüquqşünas kimi dövlətçiliyimizin, qanunlarımızın və insan hüquqlarının qorunmasında fəal iştirak etmək arzusundayam. Biz gənclərin təhsili üçün yaradılan şəraitə görə dövlətimizə, o cümlədən bir dövlət qurumu olaraq Sizin rəhbərlik etdiyiniz TQDK-ya dərin təşəkkürümü bildirirəm.

*İmza: Məstiyeva Əfsanə*

## TELEQRAM
## TQDK-nın sədri Məleykə Abbaszadəyə

Çox hörmətli Məleykə xanım! Övladımız Əhmədova Aygül Maarif qızı TQDK-nın Gəncə şəhərində keçirdiyi sınaq imtahanlarında mütamadi olaraq iştirak edirdi. Bir qayda olaraq 550-600 bal toplayırdı. Bu il keçirilən qəbul imtahanlarında da 554 bal toplayaraq Azərbaycan Dövlət Aqrar Universitetinin “Dünya iqtisadiyyatı” ixtisasına qəbul olmuşdur. Azərbaycan gənclərinin ali təhsil alması üçün apardığınız tədbirlər və yüksək səviyyədə keçirdiyiniz qəbul imtahanlarına görə Sizə ailəmiz adından dərin minnətdarlığımızı bildiririk.

**Hörmətlə, Valideynlər**
**Gəncə şəhəri, Abbas Səhət ev 7/4, mən. 2**

**REDAKSİYA ŞURASI**
M.M.Abbaszadə, N.Ə.Babayev, V.M.Bağırov, F.Ş.Bədəlbəyli, A.Q.Əbiyev, M.N.Ələsgərov, Ə.T.Əmiraslanov, N.M.Xudiyev, A.M.Məhərrəmov, M.C.Mərdanov.

**REDAKSİYA HEYƏTİ**
R.H.Novruzov (baş redaktor əvəzi), H.H.Kazımov (məsul katib), F.A.Atamov, A.H.Bağırov, T.A.Bədəlov, R.H.Hüseynov, Ç.C.Xəlilov, Ə.Q.Quliyev, M.N.Qurbanov, V.R.Misirov, M.Ə.Nuriyev, Ç.İ.Rüstəmov.

**Kompüter və dizayn:**
O.Y.Şelaginov, İ.İ.Cəfərov, M.Ə.Bədəlov, S.N.Hüseynov.

**Redaksiyanın ünvanı:**
AZ1078, Bakı şəhəri, akademik Həsən Əliyev küçəsi, 17.

**Telefon:**
440-30-09 (TQDK)
441-52-20 (redaksiya).

**E-mail:**
abit@tqdk.gov.az

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. (Lisenziya B 171, 18 fevral 1999)

**© TQDK - «Abituriyent»**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması **QADAĞANDIR!**

Jurnal Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi materialları əsasında hazırlanmışdır.

Çapa imzalanmışdır 29.10.2009.
Tiraj 700.

Jurnal "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.

Reklam materiallarının məzmununa görə redaksiya cavabdeh deyil.

# Məndəricat

| | |
|---|---|
| 1 | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI |
| 2 | BİLİK YARIŞI REKORDÇULARI İLƏ MÜSAHİBƏLƏR |
| 9 | QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRƏN GƏNCLƏRLƏ GÖRÜŞLƏR |
| 10 | TQDK-NIN SƏDRİ MƏLEYKƏ ABBASZADƏNİN TƏBRİK VƏ TÖVSİYƏLƏRİ |
| 11 | İMTAHANLARIN MƏZMUNU, TƏŞKİLİ, GEDİŞİ İLƏ BAĞLI RƏY VƏ TƏKLİFLƏRDƏN |
| | YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR |
| 12 | I QRUP |
| 25 | II QRUP |
| 43 | III QRUP |
| 71 | IV QRUP |
| 89 | TQDK-nın ANKET SORĞUSUNA CAVABLARDAN SEÇMƏLƏR: GƏLƏCƏK ABİTURİYENTLƏRƏ TÖVSİYYƏLƏR, RƏYLƏR, TƏKLİFLƏR |
| 95 | MƏKTUBLARDAN SƏTİRLƏR |

## "Abituriyent" jurnalının 12-ci sayında:

- Ali və orta ixtisas təhsili məktəblərinə builki tələbə qəbulunun nəticələri;
- Abituriyentlərin ayrı-ayrı fənlər üzrə göstəriciləri, müxtəlif ixtisas qruplarına meyil və maraqları;
- Yüksək və zəif nəticəli rayonlar və məktəblər;
- Müxtəlif ixtisaslarda müsabiqə vəziyyəti;
- Ali məktəblərin reytinqi;
- Magistraturaya qəbul imtahanlarının nəticələri;
- Təhsillə bağlı tövsiyələr və təkliflər.
- TQDK-nın illik fəaliyyəti: faktların xronologiyası.